

# Zakir Həsənov Kəlbəcərdə - Tapşırıqlar verdi

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir standartlara cavab verən hərbi infrastrukturun yaradılması və bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.*

Səh.3



UNİKAL

№12 (2097) 8 aprel 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru

# "Ermənilər 30 ildir səhv edib, emosiya ilə danışırlar"

## Elmar Məmmədyarov: "Danışıb delimitasiya məsələsini həll etmək və yolları açmaq lazımdır, istəmirlərsə, yenə də İran tərəfindən keçməklə bu məsələ həll olunacaq"

*Azərbaycanın keçmiş xarici işlər naziri Elmar Məmmədyarov "Unikal"a müsahibə verib. O, Fərrux kəndi ətrafında irəliləyiş, Zəngəzur dəhlizi, Brüssel görüşü və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.*

*- Elmar müəllim, Xocalı rayonunun Fərrux kəndi Azərbaycanın tam nəzarətindədir. Fərrux kəndinin azad olunması bir daha göstərdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməkdə qərarlıdır. Bu barədə nə deyə bilərsiniz?*

-Azərbaycan hökuməti gec-tez bütün Qarabağda öz suverenliyini bərpa edəcək. Bu məsələ ilə bağlı heç kimdə şübhə qalmasın. Hərbçilər öz işlərini bilirlər və bu istiqamətdə nə lazımdırsa edirlər. Yavaş-yavaş bu məsələ həll olunacaq. Bütün o ərazilərdə Azərbaycanın suverenliyi bərpa olunacaq.

Səh.8

Səh.9



# Sülh danışıqlarında yeni mərhələ: Azərbaycan öz şərtlərini diqtə edir

## "Danışıqların Brüsseldə davam etməsi müsbət hadisədir" - Arif Hacılı



*"Azərbaycan-Ermənistan sülh danışıqlarının Moskvada yox, Brüsseldə davam etməsi müsbət hadisədir". "Unikal" xəbər verir ki, bunu Müsavat Partiyasının başqanı Arif Hacılı liderlərin Brüssel görüşünə münasibət bildirərkən deyib. "Biz hesab edirik ki, sülh danışıqları bundan sonra da bu formatda və ya ikitərəfli...*

Səh.3

## Mehdi Səlimzadə müəmması...



*Bu il fevralın 28-də Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə vəzifəsindən azad edildi. Bundan sonra isə ictimaiyyətdə onun həbs ediləcəyi barədə iddialar dolaşmağa başladı. Həmin iddiaları Səlimzadə postundan kənarlaşdırıldıqdan təxminən on gün sonra yayılan bir məlumat daha da gücləndirdi.*

Səh.5

## "Brüsseldə vurğulanan bəndlər Azərbaycanın xeyrinədir" - Politoloq



*"Tərəflər həll edilməmiş humanitar məsələlərin aradan qaldırılmasının zəruriliyini vurğulayıblar. Bu sıraya Avropa İttifaqının minatəmizləmə, münaqişədə zərər çəkmiş əhaliyə yardım, reabilitasiya və yenidənqurma işlərinə ekspert və maliyyə dəstəyi aiddir.*

Səh.11

# Manaf Ağayev lüks avtomobili ilə televiziyaya gəldi



***Müğənni Manaf Ağayev aparıcı və prodüser Tarix Əliyevin (Tolik) verilişinə qonaq olub.***

Proqram zamanı sənətçi avtomobilinin cərimə meydançasında saxlanılması xəbərlərinə münasibət bildirib. Ağayev lüks maşının özündə olduğunu deyib. Həmin vaxt verilişdə Manafın "Mtv" kanalına avtomobili ilə gəldiyi görüntüləri nümayiş olunub.

İfaçı bahalı və lüks avtomobilinin əslində elə də baha olmadığını açıqlayıb.

Qeyd edək ki, bir neçə gün əvvəl mətbuatda Manaf Ağayevə məxsus "Mercedes" markalı avtomobilinin qanunsuz olaraq polisin cərimə meydançasında saxlanılması xəbərləri yayılıb. DİN-in Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev bildirib ki, vəkilin iddiaları əsassızdır.

Məlumat üçün bildirək ki, fevralın 17-də sosial şəbəkələrdə müğənni M.Ağayevin işğaldan azad edilmiş ərazilərə səfər etməsini əks etdirən görüntülər yayılmışdı. Daha sonra Bakı şəhəri ərazisində M.Ağayev və onun yanındakı vətəndaş Sənan Hüseynov polis idarəsinə dəvət olunublar.

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, onlar işğaldan azad olunmuş ərazilərə qanunsuz yolla daxil olublar. Bununla bağlı onların izahatları alınıb. Həmin şəxslər saxlanılıb. Yasamal Rayon Məhkəməsi qərarı ilə M.Ağayev və S.Hüseynov 15 sutka həbs edilib.

# "Onu həyatda görüb üzünə tüpürəcəkdim" - Brilliant Dadaşova



***Xalq artisti Brilliant Dadaşova sosial şəbəkədəki paylaşımla diqqət çəkib.***

Müğənni bir neçə gündür instaqramda hekayə bölümündə atmacalı sözlər yazıb. Ötən gün isə Dadaşova daha bir paylaşım edib.

"Bu gün biri ölüb, mən kiminsə ölümünə sevinənlərə təəccüb edirəm. Əsla sevinmirəm. Sadəcə, onun şeytanın qardaşı olduğunu bilirəm. Bir şeyə heyfslənirəm. Onu həyatda görüb iki kəlimə deyəcəkdim. Üzünə tüpürəcəkdim. Gecikdim, bax buna üzülürəm" - deyə, ifaçı yazıb.

Qeyd edək ki, Dadaşovanın bu sözləri "Location" klubda baş verən partlayışa aid etdiyi ehtimal olunur. Belə ki, ötən gün klubda yaralananlardan biri - Fərqanə Eynullayeva dünyasını dəyişib. O, və digər yaralananlar sosial şəbəkədə günlərdi tənqid hədəfinə çevrilib.

# "Oğluma boşanmış xanım alaram" - Rühəngiz Allahverdiyeva



***Əməkdar artist Rühəngiz Allahverdiyeva oğlunun boşanmış xanımla ailə həyatı qurmasına etiraz etməyəcəyini deyib.***

O barədə o, "Həmin Zaur" proqramında danışıb: "Oğlumun bəyəndiyi qız olub. Qızı mənə göstərdi, qızdır da... Allahdan böyük rəssam yoxdur. Nəyi bəyənmədiyimi deyə bilmərəm. Amma sonradan qızın fotosun gördüm, dünya gözəlidir. Sonra o başqası ilə ailə qurdu, alınmadı, boşandı. Dedim, oğlumun ürəyi istəyirsə, onunla ailə qursun, razıyam. Ancaq qismət, alınmadı".

# "Efirlərə çıxıram ki, xalq darıxıb" - Emma Ələkbərzadə



***"Kim nə deyir, öz rəyidir. Onların öz problemidir. Öz adımdan deyirəm, bütün ifaçılara hörmətlə yanaşıram".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Emma Ələkbərzadə "10-da görüşək" proqramında deyib. Sənətçi verilişə çıxmaq üçün telekanal rəhbərlərindən qonorar tələb edən müğənnilərlə bağlı sualı cavablandırıb. O bildirib ki, özü bu addımı atmağı düşünmür:

"Efirlərə çıxıram ki, xalq darıxıb. Mənim dinləyicim, tamaşaçım az deyil, böyükdür. Böyük məmnuniyyətlə çıxmışam, çıxıram və çıxacam da. Əgər mənim bir işim yoxdursa, "hə" deyirəm. Salamat oyandımsa durub gələcəm. Heç kim öz üzərinə götürməsin".

# "Spirtli içki içərkən, siqaret, çəkərkən..." - Namiq Qaraçuxurlu



***Meyxanaçı Namiq Qaraçuxurlu instaqram paylaşımı ilə diqqət çəkib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, o, idman etdiyi görüntüləri izləyiciləri ilə bölüşüb. Sənətçi videoya qısa şərh də yazıb.

"Spirtli içki içərkən, siqaret, qəlyan çəkərkən yox, gəncləri sağlam həyata cəlb edən paylaşımlar etmək daha məsləhətlidir",- deyə Namiq bildirib.

# "Yazıq valideyn, nə deyib ağlasın görəsən?" - Nadir ölən qızdan yazdı



***Xəbər verdiyimiz kimi, aprelin 3-də "Location" klubda baş verən partlayış zamanı xəsarət alan 1999-cu il təvəllüdlü Fərqanə Eynullayeva ötən gün müalicə aldığı xəstəxanada vəfat edib.***

Sosial şəbəkədə mərhumun gecə klublarında əyləndiyi anın görüntülərinin yayılması izləyicilər tərəfindən birmənalı qarşılanmayıb. Görüntülərə tənqid yazanlardan biri də müğənni Nadir Qafarzadə olub:

"İndiki bəzi qızlar niyə ailə qurub, xanım olmaq istəmirlər ki? 23 yaşlı qız həyatını məhv etdi. Öz həyatını darmadağın etdi. Məncə bu hadisə bir çox gənc xanıma dərs olar. Yazıq valideyn, gör indi nə haldadır. Nə deyib ağlasın görəsən? Ey gənclər, həyatınızı məhv etməyin!".

Qeyd edək ki, Fərqanə Eynullayeva 60-62 faiz və III dərəcəli yanıq xəsarəti ilə reanimasiyada olan kritik ağır xəstələrdən biri idi.



# Azərbaycan və Serbiya arasında Saziş imzalandı

***“Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında Saziş” imzalanıb. Sazişi Azərbaycan Respublikası Hökuməti adından əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev və Serbiya Respublikası Hökuməti adından Serbiyanın əmək, məşğulluq, veteranlar və sosial işlər naziri xanım Dariya Kisiç Tepavçeviç imzalayıblar.***

Nazirlikdən “Unaikal”a verilən xəbərə görə, videokonfrans formatında keçirilən imzalanma mərasimində S.Babayev Azərbaycan və Serbiya dövlət başçılarının siyasi iradəsi və səyləri ilə iki ölkə arasında əlaqələrin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

O, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə aparılan geniş miqyaslı sosial islahatları qeyd edib. Sosial təminat sisteminin gücləndirilməsi və innovativ yanaşmalar əsasında təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatlar aparıldığını bildirib.

S.Babayev iki ölkə arasında bir çox sahələrdə, o cümlədən əmək və sosial təminat sahəsində əməkdaşlığın genişləndirilməsi və fəal təcrübə mübadiləsinin həyata keçirilməsi üçün böyük potensialın mövcud olduğunu vurğulayıb.

O, xanım D.K.Tepavçeviçin ötən ilin iyul ayında Azərbaycana səfəri çərçivəsində nazirliklər arasında imzalanmış “Əmək, məşğulluq və sosial müdafiə sahəsində Anlaşma Memorandumu”nun ikitərəfli əlaqələrin inkişafında əhəmiyyətini diqqətə çatdırıb.

Yeni imzalanmış Sazişin də əməkdaşlığın genişləndirilməsi və fəal təcrübə mübadiləsinin həyata keçirilməsində önəmli rol oynayacağına əminliyini ifadə edib.

D.K.Tepavçeviç Serbiya və Azərbaycanın dost münasibətləri əsasında əlaqələrinin bu gün strateji tərəfdaşlıq səviyyəsində olmasının məmnunluq doğurduğunu bildirib. O, iki ölkə arasında daim genişlənən əlaqələrin artıq əmək, məşğulluq və sosial müdafiə sahələrini də əhatə etməyə başladığını və gələcəkdə iki nazirliyin əməkdaşlığının daha da genişlənəcəyinə əminliyini qeyd edib.

İmzalanan Saziş iki ölkə vətəndaşlarının pensiya hüquqlarının təmin olunması baxımından mühüm önəm kəsb edir. Sənəd Azərbaycan və Serbiya vətəndaşlarının bu dövlətlərin ərazisində qazanmış olduqları pensiya və sosial sığorta üzrə digər hüquqlarının tanınması və qorunması mexanizmlərini müəyyən edir.

Saziş həmin istiqamətlər üzrə tərəf dövlətlərin səlahiyyətli orqanları arasında əməkdaşlığın müvafiq hüquqi çərçivədə həyata keçirilməsinə şərait yaradır.

# Əbülfəs Qarayevlə Hüseynbala Mirələmovun "Panama ortaqlığı"nın sirri

## Son iki ilin "uğursuzları": keçmiş nazirlə sabiq deputatın şərikli şirkəti niyə ləğv olunub? - İlginc təfərrüatlar...

***Yola salmaq üzrə olduğumuz həftə xəbər yayıldı ki, keçmiş mədəniyyət naziri Əbülfəs Qarayev və Milli Məclisin sabiq deputatı Hüseynbala Mirələmovun 2004-cü ildə Panamada qeydiyyatdan keçirdikləri şirkət fəaliyyətini dayandırıb. Panama mənbələrinə görə, ”RİMBA S.A.” adlanan həmin şirkətin statusu ”vigente”dən (aktiv) ’suspendido”ya keçib. Bunun mənası isə onun fəaliyyətinin dayandırılmasıdır.***

Yəni eks nazirlə keçmiş deputatın Panamadakı biznes ortaqlığının ”məhsulu” olan şirkət ləğv edilib.

Qeyd edək ki, adıçəkilən şirkətlə bağlı ilk məlumat 2020-ci ilin parlament seçkiləri ərəfəsində yayılmışdı. Həmin vaxt bildirilirdi ki, H.Mirələmov 16 ildir Panamada offşor şirkət idarə edir. Onun direktoru və xəzinədarı (ispanca tesorero - şirkətin gəlir və xərclərinə nəzarət edən şəxs) olduğu RİMBA S.A.-nın 2004-cü il fevralın 20-də 448783 saylı lisenziya ilə qeydiyyatdan keçdiyi bildirilirdi.

Bunun üstündən çox keçməmiş isə həmin vaxt Əbülfəs Qarayevin rəhbərlik etdiyi Mədəniyyət Nazirliyində xüsusi əməliyyat keçirilib, onun bir neçə yaxın adamı həbs olunub, özü isə vəzifəsindən kənarlaşdırılıb.

Lakin ortaqların ”qara günləri” yenə davam edib.

Mirələmov ötən il biabırçı videosu ilə bir daha gündəmə gəlib, onun həmin görüntüləri hətta ABŞ televiziyalarında da yayılıb. Bundan sonra keçmiş deputat Azərbaycan Dövlət Neft və Sənaye Akademiyasındakı vəzifəsindən - Qaz-Neft Mühəndisliyi fakültəsinin kafedra müdiri postundan kənarlaşdırılıb.

Qarayev isə son iki ildə həbs təhlükəsi ilə üzləşib. Belə ki, Mədəniyyət nazirliyində aşkarlanan çoxsaylı yeyinti və rüşvət faktları səbəbindən eks-nazirə qarşı da cinayət işinin açılacağı xəbərləri yayılıb, ölkədən çıxışına qadağan qoyulduğu da bildirilir. Bir az da dəqiqləşdirsək, Qarayev bu günlərdə Azərbaycanı tərk etmək istəyərkən sərhəddən qaytarılıb. Türkiyəyə getmək istəyən sabiq nazirə ölkədən çıxışına məhdudiyyət qoyulduğu deyilib.

Bununla bağlı yayılan məlumatda o da deyilirdi ki, Əbülfəs Qarayev ona qoyulmuş ”stop”un götürülməsi üçün istintaq orqanına müraciət edib. Həmin müraciətdə isə Türkiyəyə həkim müayinəsinə getmək istədiyini və geri qayıtmaq niyyətinin olduğunu yazıb.

Bütün bunları nəzərə aldıqda isə son iki ildə ”başı çox bəlalar çəkən” iki ortağın - eks naizrlə sabiq deputatın Panamadakı şirkətinin ləğvinə təəccüblənməmək lazımdır. Qarayev ölkədən çıxa bilmir, üstəlik, o, əvvəlki maliyyə gücünə sahib deyil, Hüseynbala Mirələmov isə üst-üstə yaşadığı bədbliklərdən sonra, deyəsən, əsas vaxtını yazıçılığa həsr eləyib son vaxtlar ciddi zərbə alan nüfuzunu bu yolla bərpa etmək fikrindədir. Belə ki, o, ayyarım öncə rüsvayçı videosundan sonra ilk dəfə geniş ictimaiyyətin qarşısına çıxaraq “Azərkitab” Kitab Mərkəzində “Yurda fəda üç paşa” trilogiyasının ilk əsəri olan “Ənvər Paşa” kitabının təntənəli təqdimat mərasimini keçirib. Bununla bağlı yayılan məlumatdan isə aydın olub ki, həmin tədbirdə bəzi millət vəkilləri və tanınmış ziyalılar Mirələmovu tək qoymayıblar.

Onu da deyək ki, həm Qarayevin, həm də Mirələmovun xaricdə biznesinin olduğu çoxdan bəlli idi. Məsələn, eks nazirin həyat yoldaşı Lalə Kazımova 2010-cu ilin dekabrında Türkiyədə ad və soyadının abbreviaturasını ifadə edən KL Bodrum Emlak Ticaret ve Sanayi Limited Şirketi-ni təsis edib. Şirkət İstanbul Ticaret Sicili Memurluğunda 5000 TL nizamnamə kapitalı ilə qeydiyyatdan keçib. Nizamnaməyə görə Qarayevlərin ailə şirkəti Türkiyədə və ölkə xaricində turizm obyektləri, otel, yaşayış binaları, villa və idman təsisatlarına sahib olmaq, işlətmək hüququ qazanıb. Sabiq nazirin Türkiyədəki turizm təsisatları barədə geniş məlumat olmasa da, onun xanımının sosial şəbəkələrdəki hesabında Bodrumdakı beşulduzlu Kuum otelinin simvolunu (qoşaqanadlı mələk) profil şəkli seçməsi maraq doğurur.



Qeyd olunurdu ki, şirkət tipi anonim cəmiyyətdir, statusu aktivdir (vigente), yəni fəaliyyətdədir.

O da bildirilirdi ki, 2018-ci ildən Hüseynbala Mirələmovun oğlu Fərid Mirələmovun da adı direktorlar şurasına daxil edilib.

Lakin cəmi iki il sonra RİMBA S.A.-nın fəaliyyəti naməlum səbəblərdən ləğv olunub.

Bu yerdə vurğulamaq lazımdır ki, əslində 2020-ci ildən bəri hər iki ortaqla bağlı xeyli qalmaqallar yaşanıb, onların işləri düz gətirməyib. Belə ki, elə həmin 15 il deputat mandatı daşıyan Hüseynbala Mirələmovun seçkiyə qatıldığı dairənin nəticələri ləğv olunub.

L.Kazımovanın adına Litvada da şirkət qeydiyyata alınıb. ”TRIAT EXIRE” UAB (LTD, qeydiyyat nömrəsi 302521161) 10 ildən çoxdur ki, Litvanın daşınmaz əmlak bazarında fəaliyyət göstərir. Vülnüsdə Şaltiniy 22-də Qarayevlər ailəsinə məxsus çoxsaylı daşınmaz əmlak icarəsindən gəlir 35 min dollardan artıqdır.

Keçmiş nazirin qızı Suad Malekiyə (Qarayeva) məxsus olan ”QALS” şirkəti isə Rusiyada fəaliyyət göstərir. Bu şirkət 05.07.2013-cü ildə Moskva şəhəri, Tatarskaya küçəsi 7 ünvanında dövlət qeydiyyatına alınıb və daşınmaz əmlakın alqı-satqısı ilə məşğuldur. İddialara görə, “QALS” sabiq nazirin özünün ad və soyadlarının, eləcə də ailə üzvlərinin adlarının baş hərflərindən (Qarayev, Abülfəz (Əblüfəz), Lalə (həyat yoldaşı) və Suad (qızı)) ibarətdir.

Mirələmovun isə Türkiyənin Bodrum şəhərində istirahət mərkəzi olduğu bildirilir. Onun bir neçə başqa ölkədə də biznesinin olduğu deyilir.

Sabiq deputatın keçmiş nazirlə Panamadakı şərikliyi isə yenilikdir və iki il öncəyədək nəyə görəsə gizli qalıb...

**Sənan Mirzə**

# Sülh danışıqlarında yeni mərhələ: Azərbaycan öz şərtlərini diqtə edir

## Millət vəkili: "Artıq Qarabağ problemi həll olunub, geriyə yol yoxdur və əlavə şərtlər irəli sürmək cəhdlərinin heç bir səmərəsi olmayacaq"

***Aprelin 6-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü başa tutdu. Görüş 4 saatdan artıq davam edib. Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla ikinci üçtərəfli görüşündən sonra bəyanat yayıb.***

"Unikal"ın xəbərinə görə, bəyanatda vurğulanır ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Cənubi Qafqaz regionundakı vəziyyətin müzakirəsini davam etdirmək və hər iki ölkə ilə Aİ-nin əlaqələrini inkişaf etdirmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşüb. Şarl Mişel Aİ-nin gərginliyin aradan qaldırılmasında yaxından işləmək və regionda yaşayan bütün insanların rifahı naminə təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqaz regionunu təşviq etmək üçün Ermənistan və Azərbaycan ilə əməkdaşlığı dərinləşdirməyə sadiqliyini bir daha vurğulayıb.

Qeyd edilir ki, liderlər 2021-ci ilin dekabrında Brüsseldə keçirdikləri son görüşdən və 2022-ci ilin fevralında Fransa Prezidenti Emmanuel Makronla videokonfransdan sonra baş verənləri qiymətləndiriblər. Həmçinin liderlər 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın müddəalarına tam əməl olunmasının zəruriliyini təkrarlayıblar. Tərəflər 2022-ci il martın 30-da Aİ-nin vasitəçiliyi ilə Brüsseldə Ermənistan və Azərbaycanın yüksək səviyyəli nümayəndələrinin görüşünü alqışlayıblar və liderlər səviyyəsində əldə olunmuş razılaşmaların təminatı üçün bu əlaqənin davam etdirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Prezident Mişel hər iki tərəfin etimad və dinc yanaşı yaşayışı təşviq etmək üçün humanitar jestlərinin vacibliyini vurğulayıb. O, bütün həll edilməmiş humanitar məsələlərin həllinin zəruriliyini vurğulayıb və Aİ-nin bu səyləri dəstəkləməyə hazır olduğunu bildirib. Aİ eyni şəkildə Azərbaycan və Ermənistan arasında etimadın möhkəmləndirilməsi tədbirləri, eləcə də humanitar minatəmizləmə səylərini dəstəkləməyə davam edəcək, o cümlədən ekspert məsləhətlərini vermək və maliyyə yardımını artırmaq, münaqişədən zərər çəkmiş əhaliyə yardım, reabilitasiya və yenidənqurma işlərini davam etdirəcək.

Şarl Mişel həm Azərbaycan Prezidenti İlham Əliyevin, həm də baş nazir Nikol Paşinyanın ölkələri arasında sülh sazişinə doğru sürətlə irəliləmək arzusunu bəyan etdiklərini qeyd edib. Bu məqsədlə xarici işlər nazirlərinə bütün zəruri məsələləri həll edəcək gələcək sülh müqaviləsinin hazırlanması üzərində işləməyin tapşırılması razılaşdırılıb.

Qeyd edilir ki, ikitərəfli sərhədlərin delimitasiyası və demarkasiyası vacib olacaq, bu məqsədlə 26 noyabr 2021-ci il tarixli Soçi Bəyanatına uyğun olaraq aprelin sonunadək Birgə Sərhəd Komissiyasının çağırılması da razılaşdırılıb. Birgə Sərhəd Komissiyasının mandatı aşağıdakılardan ibarət olacaq:

1) Ermənistan və Azərbaycan arasında ikitərəfli sərhədin delimitasiyası;

2) Sərhəd xətti boyunca və onun yaxınlığında sabit təhlükəsizlik vəziyyətini təmin etmək.

Liderlər həmçinin Ermənistan və Azərbaycan arasında, xüsusən də Cənubi Qafqazda kommunikasiya əlaqə infrastrukturunun bərpasını müzakirə ediblər. Prezident Şarl Mişel dəmir yolu xətlərinin bərpası istiqamətində atılan addımları alqışlayıb, eyni zamanda Ermənistan və Azərbaycanı yol əlaqələrinin bərpası üçün effektiv həll yolları tapmağı təşviq edib. Aİ özünün iqtisadi və investisiya planına uyğun olaraq və ümumi layihələri müəyyən etmək üçün təklif olunan iqtisadi məsləhət forumundan istifadə etməklə qarşılıqlı əlaqələrinin inkişafına dəstək verməyə hazırdır. Liderlər görüşlərin nəticələrini izləmək və əlaqəni davam etdirmək barədə razılığa gəliblər.

"Tərəflər sülh müqaviləsinin reallaşması üçün öz istəklərini bəyan ediblər. Azərbaycan artıq 5 bəndlik sülh təkliflərini Ermənistana təqdim edib və ölkəmiz regionda sülhün yaranmasında maraqlı dövlətdir. Sülh anlaşmasının işlənməsi və hazırlanması üçün hər iki ölkənin xarici işlər nazirlikləri fəaliyyətlər həyata keçirəcəklər". Bunu "Unikal"a deputat Vüqar Bayramov Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüşü şərh edərkən deyib.

Onun sözlərinə görə, aprelin sonunadək Birgə Sərhəd Komissiyasının çağırılması və iki ölkə arasında sərhədlərin delimitasiyası məsələlərinin müzakirəsinin davam etdirilməsi də razılaşdırılıb:

"Vacib məqamlardan biri də ölkələr arasında kommunikasiyaların bərpasıdır. Avropa İttifaqı dəmir yolu əlaqələrinin bərpası istiqamətində atılan addımları dəstəkləyərək avtomobil yolu əlaqəsinin də bərpası ilə bağlı tərəfləri səylər göstərməyə çağırıb. Bu, Zəngəzur dəhlizinin reallaşması baxımından da vacib yanaşmadır. İrəvanda müəyyən dairələr artıq anlayırlar ki, Zəngəzur dəhlizini əngəlləməklə Ermənistan yeni mühüm imkanları əldən buraxır. Zəngəzur dəhlizinin reallaşması Ermənistana bu marşrutun bir hissəsi olmağa və beynəlxalq yükdaşımalarda gəlir əldə etməsinə imkan verə bilərdi. İrəvanın düşünülməmiş siyasəti ona gətirib çıxartdı ki, Azərbaycan bu marşrutu İran vasitəsilə reallaşdırmağa başladı və Ermənistan yenə də oyundan kənar vəziyyətdə qalıb".

Deputat onu da xatırladıb ki, jurnalistlərin suallarını cavablandıran Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel sülh müqaviləsinin hazırlanması ilə bağlı prosesin başladığını bildirib:

"Artıq proses başlayıb. Təbii ki, yeni mərhələdə Ermənistanın öz öhdəliklərinə əməl etməsi vacibdir. Getdikcə İrəvan üçün yollar daralır. Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Şanlı Zəfərdən sonra Ermənistan üçün ölkəmizin 5 bəndlik sülh təkliflərini qəbul etmək ən rasional seçim kimi görsənir. Brüssel görüşü Azərbaycan diplomatiyasının yeni uğurudur. "Qarabağ münaqişəsi" sözünün bir dəfə də işlədilməmədiyi Avropa Şurasının son bəyanatı da artıq konfliktin həll olunduğundan və bütün yolların ölkələrin ərazi bütövlüyü çərçivəsində sülh anlaşmasının imzalanmasına apardığından xəbər verir".

Milli Məclisin deputatı Ceyhun Məmmədov isə bildirib ki, görüşə qədər olan dövrdə Azərbaycan konstruktiv mövqe nümayiş etdirərək Ermənistana münasibətlərin normallaşdırılmasına hesablanmış 5 bəndən ibarət sənəd təqdim etmişdi. Ermənistan isə daha çox təxribatlar törədərək Azərbaycana qarşı beynəlxalq qurumlara şikayət yolu seçmişdi.

Müsahibimiz onu da qeyd edib ki, aprelin 5-də Yerevanda müxalifətin mitinqi Brüssel görüşü ərəfəsində Paşinyan hakimiyyəti tərəfindən təşkil edilmiş növbəti tamaşa idi: "Buradan belə bir haqlı sual yaranır. Niyə mitinqlər bu günə kimi keçirilmirdi? Sözügedən mitinq nə üçün Brüssel görüşündən bir gün əvvəl keçirildi? Ermənistan hakimiyyəti kimin başını aldatmaq istəyirdi? Heç şübhəsiz ki, bu mitinqlər ictimai rəyə əsaslanaraq danışıqlar zamanı Paşinyanın özünü mümkün ssenarilərdən sığortalaması məqsədi daşıyırdı. Məlum olduğu kimi, Ermənistanda bütün rəhbərliklər dövründə danışıqlar prosesini durdurmaq və zaman udmaq üçün bu kimi metodlardan geniş istifadə olunub. Bu bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqlar prosesini pozmaq, sülh müqaviləsini imzalamaqdan imtina etməkdir. Bu yanaşma artıq Ermənistanın dövlət siyasətinə çevrilib.



Lakin Brüssel görüşü bir daha göstərdi ki, Paşinyan da, onun Qərbdəki havadarları da çox yaxşı bilirlər ki, artıq Qarabağ problemi həll olunub, geriyə yol yoxdur və əlavə şərtlər irəli sürmək cəhdlərinin heç bir səmərəsi olmayacaq. Gec-tez sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və digər məsələlərin həlli üzərində işə başlanılacaq. Bu nə qədər tez olsa, Ermənistan üçün bir o qədər yaxşıdır. Azərbaycan heç zaman öz haqlı mövqeyindən bir addım da geri çəkilməyəcək".

Millət vəkili onu da vurğulayıb ki, Prezident İlham Əliyevlə bütün görüşlərdə olduğu kimi, Paşinyan Aprelin 6-da Brüssel görüşü zamanı da zərbə aldı: "Paşinyan bilməlidir ki, bütün müqavimət cəhdləri növbəti yeni zərbə ilə nəticələnəcəkdir. Ermənistan bunu nə qədər tez anlasa, bir o qədər yaxşı olar. Əgər Ermənistan bunu danışıqlar yolu ilə anlamasa, o zaman dəmir yumruq yenidən işə düşə bilər. Ermənistan 44 günlük müharibədə baş verənlərdən ciddi nəticə çıxarmalıdır. Beləliklə, Ermənistanın Brüssel görüşünə bəslədiyi növbəti ümidi də puça çıxdı. Həm görüşlərdə, həm də Avropa Şurasının Prezidenti Şarl Mişelin mətbuata açıqlamasında Azərbaycanın mövqeyini dəstəkləyən fikirlər səsləndirildi. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq platformada Azərbaycan növbəti dəfə mövqeyini daha da gücləndirdi. Ermənistan isə bütün cəhdlərə və təxribatlara baxmayaraq növbəti zərbəni aldı, ümidləri puça çıxdı".

***Z.Məmmədli***

# Prezident fərman İMZALADI



***Prezident İlham Əliyev Azərbaycan ərazisində baş vermiş təbii fəlakətlərin, texnogen qəzaların və hərbi əməliyyatların nəticələrinin aradan qaldırılması ilə əlaqədar dövlət vəsaiti hesabına inşa edilmiş yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının mənzilləri üzərində hüquqların rəsmiləşdirilməsi, habelə onların yerləşdiyi torpaq sahələri ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, sənəddə deyilir:

1. Yerli icra hakimiyyəti orqanları:

1.1. müvafiq inzibati ərazi vahidlərinin ərazisində baş vermiş təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına inşa edilmiş və bu Fərman qüvvəyə mindiyi günədək tikinti-quraşdırma işləri başa çatmış və ya tikinti işlərinə başlanılmış yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının mənzillərinin təqdim edildiyi şəxslərin siyahısını (hər bir şəxsə təhvil verilən yaşayış evi və (və ya) mənzil dəqiq göstərilməklə), yaşayış evlərinə münasibətdə tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinin surətini, istismarına icazə verilmiş çoxmənzilli yaşayış binalarına münasibətdə isə həmin binanın tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinin və istismarına icazə sənədinin surətini iki ay müddətində İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim etsinlər;

1.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

2. İqtisadiyyat Nazirliyi:

2.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş siyahıda adları qeyd olunan şəxslərin müraciətləri əsasında yaşayış sahələri, habelə yaşayış evlərinin həyətyanı torpaq sahələri üzərində onların mülkiyyət hüquqlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını təmin etsin;

2.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş siyahıda adları qeyd olunan şəxslərin müraciətlərinə baxılarkən:

2.2.1. yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının inşa edildiyi torpaq sahələri bələdiyyə mülkiyyətində olduğu hallarda həmin torpaq sahələrinin döngə nöqtələrinin koordinatları və ölçüsü barədə məlumatları belə halın aşkar edildiyi tarixdən bir ay müddətində Nazirlər Kabinetinə təqdim etsin;

2.2.2. yaşayış evləri və çoxmənzilli yaşayış binaları bu məqsəd üçün nəzərdə tutulmayan torpaq sahəsində inşa edildiyi hallarda həmin torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi barədə Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmasını təmin etsin;

2.3. bu Fərmanın 2.1-ci və 2.2-ci bəndlərinin icrası ilə bağlı görülən işlər barədə hər yarımildə bir dəfə Azərbaycan Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Nazirlər Kabineti:

3.1. İqtisadiyyat Nazirliyinin bu Fərmanın 2.2-ci bəndinə uyğun olaraq təqdim etdiyi məlumatlar əsasında:

3.1.1. yaşayış evləri və çoxmənzilli yaşayış binaları bələdiyyə mülkiyyətində olan torpaq sahələrində inşa edildiyi hallarda bələdiyyəyə mütənasib dəyərdə dövlət mülkiyyətindən torpaq sahələrinin ayrılmasını təmin etsin;

3.1.2. bu Fərmanın 2.2.2-ci yarımbəndində göstərilən hallarda, habelə zərurət olduğu hallarda bu Fərmanın 3.1.1-ci yarımbəndinə əsasən bələdiyyə mülkiyyətinə ayrılan torpaq sahələrinin kateqoriyasının dəyişdirilərək yaşayış məntəqələrinin torpaqları kateqoriyasına aid edilməsini təmin etsin;

3.1.3. yaşayış evlərinin yerləşdiyi torpaq sahələri üzərində vətəndaşların mülkiyyət hüququnun rəsmiləşdirilməsi üçün tədbirlər görsün və bu barədə hər yarımildə bir dəfə Azərbaycan Prezidentinə məlumat versin;

3.2. təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi ilə bağlı torpaq sahələrinin ayrılması, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı, habelə şəhərsalma və tikinti prosedurlarının sadələşdirilməsi məqsədilə bu sahədə münasibətləri tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

# Putin barəsində cinayət işi başlanıldı

***Almaniyada Ukraynaya qarşı müharibəyə görə Rusiya prezidenti Vladimir Putin barəsində cinayət işi başlanılıb.***

"Unikal" xəbər verir ki, Almaniyanın keçmiş ədliyyə naziri Sabine Leutheusser-Schnarrenberger və keçmiş daxili işlər naziri Gerhart Baum Rusiya prezidenti Vladimir Putin də daxil olmaqla bir sıra digər Rusiya rəsmilərinə qarşı hərbi cinayətlərin araşdırılmasını tələb edərək Federal Prokurorluğa cinayət işi qaldırıblar.

Berlində keçirilən mətbuat konfransında iki eks-nazir rus qoşunlarının Ukraynada törətdiyi insanlığa qarşı beynəlxalq hüquqa görə cinayət sayılan ən ağır cinayətləri sadalayıb.

***Gülayə Mecid***



# Muxtar Babayevə yeni səlahiyyət verildi

***Nazirlər Kabineti Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məxsus "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" ASC-nin Nizamnaməsinin təsdiq edilməsi barədə 6 may 2009-cu il tarixli qərarında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov yeni qərar imzalayıb.



Qərara əsasən, bundan sonra səhmdar cəmiyyətinə sədri prezident deyil, nazir (indiki halda Muxtar Babayev) təyin edəcək.

Bundan başqa, kommersiya qurumu qanunvericiliklə müəyyən edilmiş qaydada nümayəndəlik və filiallar, tabeliyində olan hüquqi şəxs statuslu qurumlar yaradanda, yenidən təşkil edəndə və yaxud ləğv edəndə bunu İqtisadiyyat Nazirliyi ilə razılaşdırmalı olacaq.

# Rusiya Kiyevə yenidən hücum edəcək - Generaldan XƏBƏRDARLIQ

***"Rusiya qoşunları yaxın zamanlarda Donetsk və Luqansk vilayətlərini bütövlükdə ələ keçirmək niyyətindədir və bundan sonra onlar Kiyevi götürməyə cəhd göstərəcək".***

"Unikal" UNIAN-a istinadən xəbər verir ki, bunu Ukrayna Silahlı Qüvvələri Quru Qoşunları komandanlığı qərargahı rəisinin müavini, general Aleksandr Qruzeviç aprelin 7-də keçirdiyi brifinqdə bildirib.

"Düşmən Donetsk və Luqansk vilayətlərini tamamilə nəzarətə götürməyə cəhd edəcək. Bundan sonra onun yenidən Kiyevə hücum edəcəyi gözlənilir. Rəqib bu məqsəddən əl çəkməyib. Təhlükə hələ də qalmaqdadır", - o vurğulayıb.

A.Qruzeviç deyib ki, hazırda Kiyevdə vəziyyət gərgindir: "Ukrayna hərbçiləri xarici müdafiə dairəsini genişləndirir, rayonlarda təmizlik zamanı diversantları saxlayırlar".



# Kənd Təsərrüfatı Nazirliyinə yeni səlahiyyət verildi

***Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, Fərmana əsasən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı"na aşağıdakı məzmunda bənd əlavə edilib: "Kənd təsərrüfatı bitkilərinin toxum və əkin materialları, habelə seleksiya nailiyyətləri ilə bağlı "Toxumçuluq haqqında", "Çayçılıq haqqında", "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının qanunları və bu sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş müvafiq tələblərə riayət olunmasının Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən yoxlanılması".

# Son sutkada 25 nəfər COVID-19-a yoluxub, 2 nəfər vəfat edib

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 25 yeni yoluxma faktı qeydə alınıb 61 nəfər müalicə olunaraq sağalıb.***




Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ölkədə ümumilikdə 792 166 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 204 nəfər müalicə olunaraq sağalıb, 9 703 nəfər vəfat edib, aktiv xəstə sayı 259 nəfərdir. Ölkədə son sutka ərzində 4 755, hazırkı dövrədək isə 6 731 315 test aparılıb.



# Çavuşoğlu ukraynalı həmkarı ilə görüşdü

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ukraynalı həmkarı Dmitro Kuleba arasında görüş olub.***

"Unikal" xəbər verir ki, bu barədə Çavuşoğlu tviter səhifəsində yazıb. "Həmkarımla atəşkəs və sülh barədə danışdıq. Ukraynanın ərazi bütövlüyünə dəstəyimizi ifadə etdik", - o deyib.

# Səhiyyə Nazirliyində maliyyə yoxlaması aparılır - RƏSMİ

***Hesablama Palatası Səhiyyə Nazirliyində yoxlamalara başlayıb.Bu barədə Səhiyyə Nazirliyindən Modern.az-ın sorğusuna cavab olaraq bildirilib.***

"Azərbaycan Respublikası Hesablama Palatası 2022-ci ilin İş Planına əsasən "Böyrəklərin xroniki xəstəliyi sahəsində Azərbaycan Respublikasında həyata keçirilən fəaliyyətin auditinə dair" səmərəlilik auditi olaraq kənar dövlət maliyyə nəzarəti tədbirini həyata keçirir", - rəsmi məlumatda bildirilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Zakir Həsənov Kəlbəcərə getdi - Tapşırıqlar verdi

***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir standartlara cavab verən hərbi infrastrukturun yaradılması və bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Quru Qoşunlarının Ümumqoşun Təlim Mərkəzində yeni inşa edilmiş inzibati binada yaradılan şərait, həmçinin təlim sahəsində görülən işlərlə tanış olub. Məruzə olunub ki, müxtəlif qoşun növləri bölmələrinin təyinatı nəzərə alınmaqla real döyüş şəraitinə uyğunlaşdırılan mərkəzdə təlimlərə cəlb ediləcək hərbi qulluqçuların döyüş hazırlığının və taktiki-xüsusi bacarıqlarının inkişaf etdirilməsi məqsədilə lazımi infrastruktur yaradılıb.



Sonra nazirliyin rəhbər heyəti Kəlbəcər rayonunda yerləşən hərbi hissədə yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, hərbi hissədə şəxsi heyətin nümunəvi xidmət etməsi üçün mebellərlə təchiz edilmiş yataqxana və xidməti otaqlar, hamam-sanitar qovşağı, qurutma otağı, tibb məntəqəsi, ehtiyat qidaların saxlanması üçün ərzaq anbarı, yeməkxana və mətbəx avadanlığı mövcuddur. Binada mərkəzləşdirilmiş istilik sistemi, işıq, su və dayanıqlı rabitə, həmçinin ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar vardır.

Daha sonra general-polkovnik Z.Həsənov hərbi hissənin təlim mərkəzində hərbi qulluqçuların nümunəvi çıxışlarını izləyib. Bildirilib ki, burada hərbi qulluqçulara atəş və dağ hazırlığı, eləcə də müxtəlif maneələrdən keçid və digər fəaliyyətlərin aparılması öyrədilir.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını müsbət qiymətləndirən nazir onların qayğıları ilə maraqlanıb, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdırıb.

Sonda müdafiə naziri hərbi qulluqçuların döyüş hazırlığının və peşəkarlıq səviyyələrinin daim yüksək səviyyədə saxlanılması ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# Paşinyan sərhədlərlə bağlı yaradılan komissiyanın detallarını açıqladı

***Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyası üzrə ikitərəfli komissiyanın yaradılması ilə bağlı bəzi detalları açıqlayıb.***

"Paşinyan hökumətin iclasında çıxışı zamanı qeyd edib ki, komissiyaya ikili mandat veriləcək - delimitasiyanın özünü həyata keçirmək və sərhəddə sülh və təhlükəsizliyi təmin etmək.

- Bu mövzuda, o cümlədən Rusiyanın vasitəçiliyi ilə bağlı müzakirələr artıq bir ildir ki, davam edir. Və sonda biz belə bir kompromis həllə gəldik. Bilirsiniz ki, Ermənistanın müəyyən əraziləri var ki, Azərbaycanın nəzarətindədir. Və ya bunun əksinə olaraq Azərbaycan ərazisi var ki, bizim nəzarətimizdədir. Bu məsələlər danışıqların nəticələri əsasında həll olunmalıdır və təbii ki, hüquqi qüvvəyə malik sənədlər əsasında həll edilməlidir, - baş nazir fikirlərinə əlavə edib.

Baş nazirin sözlərinə görə İrəvanın mövqeyi ondan ibarətdir ki, Ermənistanla Azərbaycan arasında de-yure sərhəd var. Söhbət sovet dövründə mövcud olan sərhəd xəttindən gedir.

- Bu nöqteyi-nəzərdən delimitasiya üzrə işə başlamaq və paralel olaraq sülhün və sabitliyin təmin edilməsi üçün tədbirlər görmək lazımdır, Paşinyan qeyd edib.



Onun sözlərinə görə, Rusiya sərhədin delimitasiyası və demarkasiyası ilə bağlı işlərə yardım etməyə hazır olduğunu bildirib. Eyni şey Avropa İttifaqına da aiddir.

# "Danışıqların Brüsseldə davam etməsi müsbət hadisədir" - Arif Hacılı

***"Azərbaycan-Ermənistan sülh danışıqlarının Moskvada yox, Brüsseldə davam etməsi müsbət hadisədir".***

"Unikal" xəbər verir ki, bunu Müsavat Partiyasının başqanı Arif Hacılı liderlərin Brüssel görüşünə münasibət bildirərkən deyib.

"Biz hesab edirik ki, sülh danışıqları bundan sonra da bu formatda və ya ikitərəfli qaydada Bakının irəli sürdüyü baza prinsipləri əsasında davam etdirilməli, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi bağlanmalıdır.



Bu müqaviləyə əsasən tərəflər bir-birinin ərazi bütövlüyünü tanımalı, sərhədlərin delimitasiya və demarkasiyası həyata keçirilməli, Azərbaycan dövləti Yuxarı Qarabağda yaşayan erməni əhalisinin təhlükəsizliyinə təminat verməlidir.

Əgər digər tərəf təhlükəsizlik üçün beynəlxalq təminat tələb edərsə, bu təminatı iki NATO dövləti, Azərbaycan tərəfdən Türkiyə, Ermənistan tərəfdən Fransa öz üzərinə götürə bilər".

A.Hacılının fikrincə, indiki mərhələdə münaqişənin həlli, regionda davamlı sülhün təmin olunması, xarici silahlı qüvvələrin ərazilərimizdən və Cənubi Qafqazdan çıxarılması "Müsavat"ın doğru, həm də mümkün hesab etdiyi yol xəritəsidir.

# Vilayət Eyvazov DYP rəisini işdən çıxardı

***DİN-də kadr dəyişikliyi olub. "Unikal" oxu.az-a istinadən xəbər verir ki, bu barədə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.***

Əmrə əsasən, Lənkəran Şəhər Rayon Polis Şöbəsinin (RPŞ) Dövlət Yol Polisi Bölməsinin rəisi polis mayoru Sübhan İsgəndərov vəzifəsindən azad edilərək sərəncama götürülüb.

Hələlik onun yerinə təyinat yoxdur.

# Nazirlik "IRŞAD"a maliyyə sanksiyası tətbiq etdi

***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti "IRŞAD ELECTRONİCS" MMC-yə maliyyə sanksiyası tətbiq edib.***

Bu barədə "Unikal"a qurumdan bildirilib. Məlumata görə, Dövlət Xidməti antiinhisar qanunvericiliyinin tələblərinin pozulmaması və haqsız rəqabətə yol verilməməsi üçün kompleks tədbirləri davam etdirir. Bu tədbirlər çərçivəsində mobil telefon cihazları bazarında araşdırmalar zamanı təsərrüfat subyektlərinə zəruri sənəd və məlumatların təqdim olunmasına dair sorğular göndərilib.

"İnteqral" QSC, "IRŞAD ELECTRONİCS", "Soliton LTD" və "ELCORE DİSTRİBUTİON AZ" MMC-lər sorğuda tələb olunan sənəd və məlumatları təqdim etmədiyi üçün həmin təsərrüfat subyektləri barəsində iş qaldırılıb. Bu gün "IRŞAD ELECTRONİCS"ə qarşı qaldırılan işə baxılıb, müvafiq göstərişlər verilib və təsərrüfat subyektinə qarşı maliyyə sanksiyası tətbiq edilib.

Digər təsərrüfat subyektləri üzrə işə baxılmasının nəticələri barədə məlumat veriləcək və Dövlət Xidmətinin internet səhifəsində yerləşdiriləcək.

# "Azərsu"da israilli nümayəndə heyəti ilə görüş keçirildi

***"Azərsu" ASC-də Azərbaycanda səfərdə olan İsrailin Milli Su Qurumu - "Mekorot" şirkətinin nümayəndə heyəti ilə görüş keçirilib.***

"Unikal" bu barədə səhmdar cəmiyyətinə istinadən xəbər verir.

Məlumata görə, qurumun sədr müavini Etibar Məmmədov ölkəmizdə içməli su təchizatı və tullantı sularının axıdılması sahəsində həyata keçirilən layihələr barədə məlumat verib, onların icrasında beynəlxalq maliyyə təşkilatları və şirkətlərlə sıx əməkdaşlıq edildiyini bildirib.

Su sektorunda innovativ texnologiyaların tətbiqi sahəsində İsrail şirkətlərinin böyük təcrübəyə malik olduğunu xatırladan E.Məmmədov ötən müddətdə "Azərsu" mütəxəssislərinin bu ölkədə təşkil olunmuş sərgi və konfranslarda iştirak etdiyini, su texnologiyaları sahəsində müxtəlif şirkətlərlə əməkdaşlıq edildiyini diqqətə çatdırıb.

"Mekorot"un Direktorlar Şurasının sədr müavini Yızhaq Aharonoviç rəhbərlik etdiyi şirkətin suyun effektiv idarə olunması sahəsində böyük təcrübəyə malik olduğunu bildirib. Qonaq qeyd edib ki, qlobal iqlim dəyişmələrinin su ehtiyatlarına mənfi təsirlərinin müşahidə olunduğu dövrdə sudan səmərəli istifadə məsələsi daha da aktuallaşır və bu sahədə mütərəqqi texnologiyaların tətbiqi mühüm əhəmiyyət daşıyır.

Görüşdə içməli su sahəsində ağıllı texnologiyalardan istifadə, dəniz suyunun duzsuzlaşdırılması, su itkilərinin idarə olunması və digər məsələlər üzrə təqdimatlar edilib və müzakirələr aparılıb. "Azərsu" və "Mekorot" şirkəti arasında Anlaşma Memorandumunun imzalanacağına əminlik ifadə olunub.

# Peyvənd olunanların sayı açıqlanıb

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 9497 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 630, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 760, 3-cü və daha çox doza üzrə vaksinasiya olunanların sayı 7588, pozitiv nəticədən sonra buster doza olunanların sayı isə 519 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 13 523 432, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 329 250, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 830 745, 3-cü və daha çox doza üzrə vaksinasiya olunanların sayı 3 131 203, pozitiv nəticədən sonra buster doza olunanların sayı isə 232 234 təşkil edir.



## Əli Əsədov Artur Rasizadənin qərarına dəyişiklik etdi

***Azərbaycanın sabiq Baş naziri Artur Rasizadənin 17 oktyabr 2016-cı il tarixli qərarı ilə təsdiq edilmiş "Reklamı qadağan olunan əmtəələrin Siyahısı"nda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, siyahıya daxil olan "Keçirilməsi qadağan edilmiş stimullaşdırıcı lotereyalar və qeydiyyata alınmamış digər lotereyalar" anlayışı "Qumar oyunları, həmçinin "Bədən tərbiyəsi və idman haqqında" və "Lotereyalar haqqında" qanunlarla müəyyən edilmiş qaydada dayandırılmış, ləğv edilmiş və ya keçirilməsi qadağan edilmiş idman mərc oyunları və lotereyalar" anlayışı ilə əvəzlənib, ayrıca "Qumar oyunları" anlayışı ləğv olunub.

## Vüqar Qurbanov bu xəstəxanaya direktor təyin etdi

***Tərtər Rayon Mərkəzi Xəstəxanasına yeni direktor təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri vəzifəsini müvəqqəti icra edən Vüqar Qurbanov əmr imzalayıb.

Əmrə əsasən, sözügedən vəzifəyə Sərxan Cəlahani təyinat alıb.

## 3 min tələbə müraciət etdi, 400-ü müsbət rəy aldı

***2021-2022-ci tədris ilinin yaz semestrində təhsil tələbə krediti əldə etmək üçün müraciət edənlərin sayı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Təhsil Tələbə Krediti Fondunun 2021-2022-ci ilin payız semestri üzrə hesabatını təqdim edən Fondun icraçı direktoru Araz Paşayev açıqlama verib.

O bildirib ki, hazırkı rəqəmlərə əsasən 3000-ə yaxın tələbə kredit almaq üçün müraciət edib: "Həmin müraciətlərin təxmini 400-nə artıq müsbət rəy verilib".

## Nazir, icra başçısı və komitə sədri idmançılarla görüşdü

***Kənd təsərrüfatı naziri, Ağır Atletika Federasiyasının prezidenti İnam Kərimov, Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, millət vəkili Tahir Mirkişili, həmçinin Sumqayıt şəhərinin idman ictimaiyyətinin nümayəndələri Sumqayıt Olimpiya İdman Kompleksini ziyarət ediblər.***

"Unikal" xəbər verir ki, komplekslə tanış olan qonaqlar Ağır atletika və digər zallara baxış keçirmiş, həmçinin idmançılarla görüşərək onların müraciətlərini dinləyiblər.

# "Ermənilər 30 ildir səhv edib, emosiya ilə danışırlar"

## Elmar Məmmədyarov: "Danışıb delimitasiya məsələsini həll etmək və yolları açmaq lazımdır, istəmirlərsə, yenə də İran tərəfindən keçməklə bu məsələ həll olunacaq"

***Azərbaycanın keçmiş xarici işlər naziri Elmar Məmmədyarov "Unikal"a müsahibə verib. O, Fərrux kəndi ətrafında irəliləyiş, Zəngəzur dəhlizi, Brüssel görüşü və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.***

***- Elmar müəllim, Xocalı rayonunun Fərrux kəndi Azərbaycanın tam nəzarətindədir. Fərrux kəndinin azad olunması bir daha göstərdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməkdə qərarlıdır. Bu barədə nə deyə bilərsiniz?***

-Azərbaycan hökuməti gec-tez bütün Qarabağda öz suverenliyini bərpa edəcək. Bu məsələ ilə bağlı heç kimdə şübhə qalmasın. Hərbçilər öz işlərini bilirlər və bu istiqamətdə nə lazımdırsa edirlər. Yavaş-yavaş bu məsələ həll olunacaq. Bütün o ərazilərdə Azərbaycanın suverenliyi bərpa olunacaq.

***-Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin vasitəçilik və iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Bu görüşdən sonra sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı nə gözlənilir?***



-Ermənistan tərəfi deyir ki, delimitasiya və demarkasiyaya razıdırlar. Əgər razıdırlarsa, ikitərəfli komissiya yaradılmalıdır. Bununla bağlı gərək hökumətlərarası komissiya yaradılsın, burada Xarici İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi və s. aidiyyəti qurumlar iştirak etsin. Azərbaycan tərəfi buna hazırdır. Xəritələr var, bunun üzərində iş başlamalıdır. Ermənistan tərəfi ilk növbədə komissiyanın yaradılmasına razılıq verməlidir. Bundan sonra komissiya görüşməlidir. Ermənistan tərəfi bildirir ki, qoşunları sərhədlərdən çıxaraq. Qoşunları sərhəddən geri çəkməkdən danışırlar, amma sərhədi tanımayıblar. Hələ sərhəd müəyyənləşməyib. Bildirirlər ki, dəmir yolunu, avtomobil yolunu tikməyə hazırdırlar. Buna hazırdırlarsa, ilk növbədə sərhədi müəyyənləşdirmək lazımdır. Qatarlar, yük avtomobilləri sərhədi keçməlidir. Burada söhbət Həm Naxçıvan, həm də Zəngilan tərəfindən gedir. Sərhəd böyük bir sistemdir. Buna razı olduqlarını deyirlər, amma real addımlar atmırlar.

***-Əsas məsələlərdən biri də Zəngəzur dəhlizi ilə bağlıdır. Azərbaycan tərəfi İranla memorandum imzaladı. Qarşı tərəf gördü ki, biz bu layihəni belə də həyata keçirə bilərik...***

-Bu, çox yaxşı addım idi ki, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandum imzalandı. Memorandumun məqsədi Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir.

Ermənistanın Baş naziri Nikol Paşinyan tez-tez bildirirdi ki, bu yol böyük vəsait gətirəcək və s. Əgər elədirsə, danışıb delimitasiya məsələsini həll etmək və yolları açmaq lazımdır. Əgər istəmirlərsə, yenə də İran tərəfindən keçməklə bu məsələ həll olunacaq. Ermənilər 30 ildir səhv edir, emosiya ilə danışırlar.

***-Bu gün dünyanın əsas diqqət mərkəzində olan məsələ Rusiya-Ukrayna müharibəsidir. Bu savaş yaxın vaxtlarda bitə bilərmi?***

-Hər zaman bildirirəm ki, onlar ilk növbədə atəşkəs rejimi tətbiq etməlidirlər. Bu, çox önəmli məsələdir və danışıqlara böyük kömək edəcək. Məsələn, Azərbaycan 1994-cü ildə Ermənistanla atəşkəs barədə razılıq əldə etdi və bundan sonra ölkəmizdə inkişaf başlandı. 30 ildən sonra isə biz öz torpaqlarımızı işğaldan azad etdik. Rusiya-Ukrayna müharibəsinə gədikdə isə verilən bəyanatlara baxarkən belə düşünürəm ki, vaxt hələ yetişməyib. Çünki oyunçular çoxdur.

***-Bu müharibənin necə bitəcəyini düşünürsüz?***

-Bütün müharibələrin bitdiyi bir zaman olur. Sülh sazişi ilə və ya sülh sazişi olmasa da, əlaqələri bərpa etməklə bu məsələ öz yolunu tapır. Bu müharibənin necə bitəcəyinə gəlincə, fərqli yanaşmalar var. Bir daha qeyd etmək istərdim ki, atəşkəs rejimi ilə bağlı razılığa gəlsələr, deyərdim ki, bu düz istiqamətdir. Atəşkəs məsələsi nə Rusiya, nə də Ukrayna tərəfindən səsləndirilir. Gərək Rusiya ilə Ukrayna arasında atəşkəs əldə olunsun. Əgər atəşkəs əldə olunsa, danışıqlar o zaman pozitiv şəkildə davam edəcək.

***- Türkiyənin vasitəçiliyi ilə Ukrayna-Rusiya münaqişəsinin həlli üçün görüşlər keçirilir. Qardaş Türkiyənin vastəçiliyi ilə bu problem həll edilə bilərmi?***

-Türkiyənin bu məsələdə rolu çox yüksəkdir, birmənalı olaraq bunu alqışlayıram. Bu, böyük bir addımdır. Görüşün keçirildiyi yerə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da gəldi və mövqeyini bildirdi. Görüşdə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, milli müdafiə naziri Hulusi Akar da iştirak elədi. Bu onu göstərir ki, Türkiyə bu prosesdə böyük əhəmiyyət kəsb edir. Növbəti addımların nə olacağını isə gözləmək lazımdır.

***-Bu müharibənin nəticələri Cənubi Qafqazdakı proseslərə necə təsir edəcək?***

-Məlumdur ki, iqtisadi baxımdan təsirləri olacaq. Biz həm Rusiyadan, həm də Ukraynadan buğda alırdıq, müharibəyə görə qiymətlər qalxacaq. Bu baxımdan Azərbaycana da iqtisadi təsirləri olacaq. Buğda ilə yanaşı digər məhsulların da qiymətinin qalxması gözlənilir. Siyasi baxımdan isə hər hansı təsirin olacağına inanmıram.

***-Mətbuatda Ermənistanın özünə məxsus 4 ədəd müasir SU-30 təyyarəsini Ukraynadakı döyüşlərə görə Rusiyaya verdiyi ilə bağlı məlumatlar yer almışdı. Bununla bağlı Ermənistana qarşı hansı addımlar atıla bilər?***

-Bu barədə "Haber Global" telekanalı məlumat yaymışdı. Ermənsitan tərəfi isə bundan imtina edir. Sonra həmin təyyarələrin necə getdiyi göstərilib. Həmin kanalın məlumatında qeyd olunub ki, görüntülər var, sübut edə bilərlər ki, bu təyyarələr Ukrayna istiqamətində gediblər. Ukrayna tərəfi gərək bu məsələni qaldırsın, istintaq aparsınlar ki, doğurdan da Ermənistan təyyarələri Rusiyaya göndərib ya yox.

***- İki ilə yaxındır ki, nazir vəzifəsindən azad olunmusunuz. Hazırda sizə işlə bağlı təkliflər varmı?***

-Həm ölkəmizdən, həm də xaricdən təkliflər var. Ölkə daxilindən olan təklif məni qane etmədiyi üçün qəbul etmədim. Xaricdən də işlə bağlı təkliflər var idi, hələ ki, təkliflər barədə düşünürəm. Bu məsələdə tələsmək istəmirəm.

***Anar Kəlbiyev***

# Mehdi Səlimzadə müəmması...

## Göyçay Rayon İcra Hakimiyyətindəki yoxlamalar nələri üzə çıxarıb?

***Bu il fevralın 28-də Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə vəzifəsindən azad edildi. Bundan sonra isə ictimaiyyətdə onun həbs ediləcəyi barədə iddialar dolaşmağa başladı.***

Həmin iddiaları Səlimzadə postundan kənarlaşdırıldıqdan təxminən on gün sonra yayılan bir məlumat daha da gücləndirdi. Həmin məlumatda deyilirdi ki: ”Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Göyçay Rayon İcra Hakimiyyətində yoxlamalar aparır.Yoxlamalar icra hakimiyyətində yol verilmiş bəzi qanun pozuntuları ilə bağlıdır.

Məlumata görə, Rayon İcra Hakimiyyətinin bir neçə vəzifəli şəxsi artıq dindirilib.



Araşdırmalar davam etdirilir” (mənbə: APA)

İki gün sonra eyni mənbənin məlumatında Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Göyçay Rayon İcra Hakimiyyətində yoxlamaların hələ də davam etdirildiyi bildirilirdi. Sitat: ”Bir müddət əvvəl rayon icra hakimiyyətinin başçısı vəzifəsindən azad edilmiş Mehdi Səlimzadə artıq iş üzrə dindirilib. Bundan başqa, icra hakimiyyətinin bəzi vəzifəli şəxslərinin də ifadələri alınıb...”

Bundan bir qədər sonra isə yerli mətbuat yazmağa başladı ki, Göyçay İcra Hakimiyyətində aparılan yoxlamalar zamanı üzə çıxan qanun pozuntuları Mehdi Səlimzadənin azadlığdan məhrum edilməsi üçün kifayət qədər əsaslar yaradır.

”Onun vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi və başqa qanunsuz əməllərinin ifşa olunduğu bildirilir. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Göyçay Rayon İcra Hakimiyyətində yoxlamalar, ayrı-ayrı vəzifəli şəxslərin dindirilməsi, sonra Mehdi Səlimzadənin də istintaqa cəlb edilməsi faktı da bunu göstərir.

Məlumat üçün bildirək ki, Mehdi Səlimzadə uzun illər müxtəlif vəzifələrdə çalışıb.

O, iri məmurlarla qohumluq əlaqəsi olan, bununla da “toxunulmazlıq statusu” qazanan şəxslərdən hesab olunub” - martın ortalarında ”baku-post.az”ın əksər saytlarda istinadla dərc edilən məlumatında vurğulanırdı.

Qeyd edilirdi ki, son illər ölkə başçısı kadr islahatları “toxunulmaz şəxs” anlayışını tarixin arxivinə göndərib.

Ən “köklü-budaqlı” məmurların belə vəzifədən azad edilməsi, onların törətdikləri əmələ görə cavab verməyə məhkum olunması, korrupsiya ilə məşğul olan məmurların ən sərt şəkildə cəzalandırılması faktlarına teztez rast gəlirik.

Prezident çıxışlarında qanunları pozan şəxslərin heç bir güzəşt edilmədən cəzalandırılacağını dəfələrlə bəyan edib. Hətta belə şəxslərin əvvəlki xidmətlərinin də nəzərə alınmayacağını bildirib.

”Güman ki, M.Səlimzadəni də xidmətləri və iri məmurlara bağlılığı xilas etməyəcək” - yerli mətbuat belə proqnozlaşdırırdı.

Lakin Göyçayın icra başçısının vəzifəsini itirməsindən 40 gün, adıçəkilən rayonun icra hakimiyyətində yoxlamalar aparıldığı barədə xəbərin yayılmasından isə 1 ay keçməsinə baxmayaraq iddialar özünü doğrultmayıb. Nə aparılan təftişin nəticələri ilə bağlı geniş rəsmi açıqlama verilib, nə də Səlimzadənin hüquqi məsuliyyətə cəlb olunubolunmayacağı konkretləşib.

Bircə o məlumdur ki, sabiq başçının köməkçisi Vahid İsayev martın ortalarında məhkəmə qarşısına çıxarılıb.

Binəqədi Rayon Məhkəməsində keçirilən prosesdə istintaq orqanının təqdimatı təmin edilib. Belə ki, Vahid İsayev barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, İsayevin konkret nədə və yaxud nələrdə ittiham olunduğu bəlli deyil. Bircə bu məlumdur ki, o, ötən 15 il ərzində M.Səlimzadə də daxil olmaqla, 5 icra başçısının köməkçisi vəzifəsində çalışıb. Hazırda isə çalışdığı qurumdakı qanun pozuntuları ilə bağlı ittiham edildiyi deyilir.

Qeyd edək ki, Səlimzadə başçı vəzifəsindən azad edildikdən sonra onun birinci müavini İkram Vəliyev bildirib ki, hazırda rayona rəhbərlik ona tapşırılıb: ”Hələlik icra başçısının səlahiyyətlərinin icrası bir neçə günlük mənə tapşırılıb”.

Lakin ən maraqlısı odur ki, birinci müavin elə həmin açıqlamasında Səlimzadənin vəzifəsindən azad olunacağını heç özü də bilmədiyini demişdi: ”Bir yerdə işimizin başında idik. Vəzifədən azad olunması ilə bağlı sərəncam imzalandı. Yəqin ki, özü bunun səbəbini yaxşı bilər. Mənim isə ətraflı heç bir məlumatım yoxdur”.

Sabiq başçının gözləmədən vəzifəsindən kənarlaşdırılması diqqət çəkməyə bilməz. Belə aydın olur ki, onun fəaliyyəti yuxarı instansiyalarda tamamilə qənaətbəxş hesab edilməyib və bu səbəbdən də barəsində məlum sərəncam hazırlanarkən Səlimzadənin özünü öncədən məlumatlandırmaq ehtiyacı hiss edilməyib.

Xatırladaq ki, M.Səlimzadə 2016-cı ilin iyununda Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilmişdi.

2000-2003- cü illərdə Mərkəzi Seçki Komissiyasının üzvü, 2004- cü ildən Azərbaycan Bələdiyyə Qulluqçuları Həmkarlar İttifaqının təsis edilməsiylə bağlı yaradılan təşkilat qrupun rəhbəri və komitənin ilk sədri seçilən Səlimzadə 2004-2016-cı illərdə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzinin rəisi vəzifəsində çalışıb.

***Murad***

# AQTA qanunsuzluqlar aşkarladı

***Qida Təhlükəsizliyi Agentliyi (AQTA) nəzarət tədbirləri çərçivəsində Agentlik müfəttişləri tərəfindən Rayon İcra Hakimiyyətinin və Rayon Polis İdarəsinin əməkdaşları ilə birgə Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsində fəaliyyət göstərən məntəqələrdə keçirilən reydlər zamanı qanunsuz heyvan kəsiminin və ət satışının həyata keçirildiyi aşkar edilib.***

AQTA-dan ”Unikal”a verilən məlumata görə, faktlarla bağlı məntəqə sahiblərinə ciddi xəbərdarlıq edilib, yol kənarlarında qanunsuz olaraq quraşdırılmış, qida təhlükəsizliyi tələblərinə uyğun olmayan bir sıra kəsim qurğuları yerli icra orqanlarının əməkdaşları tərəfindən sökülüb.

Agentlik bir daha qanunsuz heyvan kəsimi fəaliyyəti ilə məşğul olan şəxsləri qanunvericiliyin tələblərinə əməl etməyə və qanunazidd fəaliyyətdən yayınmağa çağırıb.

# Özəl şirkət “Azəriqaz”dan təzyiqi sabit saxlamağı xahiş etdi



***Dövlət Neft Şirkətinin (SOCAR) ”Azəriqaz” İstehsalat Birliyi Bakının Nəsimi rayonunda ”Açıq mikrofon” aksiyası çərçivəsində sahibkarlarla görüş keçirib.***

Bu barədə ”Unikal”a qurumdan bildirilib.

Məlumata görə, ”Azəriqaz”ın Sayğacların tətbiqi, idarə olunması və nəzarəti şöbəsinin rəisi Rövşən Məhyəddinov aksiya çərçivəsində daxil olan müraciətlərlə bağlı indiyə qədər görülən işlər barədə məlumat verib. Görüşdə İstehsalat Birliyinin rəhbər şəxsləri ilə yanaşı, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məsul şəxsləri də iştirak ediblər. ”Kapital” və ”Nəsimi 13” Mənzil Tikinti Kooperativlərinin (MTK) nümayəndələri istehlak olunan təbii qaza görə yaranmış debitor borc səbəbindən qaz təchizatının dayandırılmamasını, ödənişlərin edilməsi üçün onlara möhlət verilməsini xahiş edib. Digər müraciəti isə çörək istehsalı ilə məşğul olan ”Nur” MMC-nin nümayəndəsi Nurəddin Məmmədov ünvanlayıb. O, bəzi hallarda qaz təzyiqində azalmaların olduğunu bildirərək, təzyiqin stabil şəkildə tənzimlənməsini xahiş edib. Daxil olan bütün müraciətlərlə bağlı müvafiq izahatlar verilərək, qeydiyyat aparılıb.

# Müzakirələrə səbəb olan yol asfaltlandı

***Səbail rayonu “20-ci Sahə” adlanan ərazidə müzakirələrə səbəb olan yola asfalt çəkilib.***



Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli məlumat verib.

A. Nəcəfli bildirib ki, yola asfalt vurulan zaman maşın ərazidə olub və sahibi tapılmadığı üçün belə bir vəziyyət yaranıb: ”Artıq məsələ həllini tapıb. Həmin əraziyə asfalt vurulub”. Qeyd edək ki, yolun asfaltlanması zamanı kənar hissədə bir avtomobil park edilib. Yol təmir edilsə də, avtomobilin parklandığı yer olduğu kimi qalıb. Görüntülər sosial şəbəkələrdə müzakirələrə səbəb olub.

# Fransanın yeni prezidentini Bakıda seçəcəklər

***Fransada keçiriləcək prezident seçkiləri ilə bağlı Bakıda səsvermə məntəqəsi açılacaq.***

“Unikal” xəbər verir ki, bu barədə Fransanın Azərbaycandakı səfirliyi məlumat yayıb.

Bildirilib ki, aprelin 10-da Fransada prezident seçkilərinin ilk turu keçiriləcək. Bununla əlaqədar Bakıda yaşayan Fransa vətəndaşları şəxsiyyətlərini təsdiq edən sənədi təqdim etməklə saat 08:00-dən 19:00-a kimi Bakı Fransız Liseyində gəlib səs verə bilər. Qeyd edək ki, Fransada prezident seçkilərinin birinci turu aprelin 10-da, ikinci turu aprelin 24-də baş tutacaq.



## "Azərişıq" ASC-nin sədri vətəndaşları qəbul edəcək

***"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov aprelin 8-i saat 10:00-da Gəncə şəhərində Gəncə, Samux və Kəlbəcər rayonlarından olan vətəndaşları qəbul edəcək.***

"Unikal" xəbər verir ki, qəbul "Azərişığ"ın Gəncə şəhəri, Rüzgar Qasımov küçəsi, dalan 2, bina 10 ünvanında yerləşən Qərb RETSİ-nin inzibati binasında keçiriləcək.

Qəbul Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən baş tutacaq.

Qəbulda iştirak etmək istəyən şəxslər Gəncə EŞ-ə və ya "Azərişıq" ASC-nin 199 çağrı mərkəzinə, onlayn isə info@azerishiq.az elektron poçt ünvanına müraciət etməklə qeydiyyatdan keçə bilərlər. Vətəndaşların diqqətinə çatdırırıq ki, qəbulda müraciətlər yalnız "Azərişıq" ASC-nin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı olmalıdır.

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, qəbulda peyvənd və ya immun sertifikatı, eləcə də əks-göstəriş sertifikatı olan şəxslər iştirak edə bilərlər.

## "ASAN xidmət"də təhsil xidmətləri təqdim olunur




***Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı nəticəsində "ASAN xidmət" mərkəzlərində vətəndaşlara təhsil xidmətləri təqdim olunur.***

Təhsil Nazirliyindən bildirilib ki, hazırda ilk olaraq Bakı şəhərində 5 saylı "ASAN xidmət" mərkəzində sözügedən xidmət göstərilir. Prosesin tədricən paytaxt və regionlarda fəaliyyət göstərən digər mərkəzlərdə də həyata keçirilməsi planlaşdırılır. İlkin mərhələdə vətəndaşlar 5 təhsil xidmətindən yararlana biləcəklər. Növbəti mərhələlərdə xidmətlərin sayının artırılması nəzərdə tutulur.

Vətəndaşlar mərkəzlər vasitəsilə təhsil sahəsində vətəndaş müraciətləri üzrə məsləhətçi, şagirdlərin elektron yerdəyişməsi, ümumi təhsil müəssisələrinin birinci sinflərinə şagird qəbulu, cari təhsil alanlar üçün elektron təhsil arayışları, təhsil tələbə kreditinə elektron müraciət xidmətlərindən yararlana bilərlər.

Qeyd edək ki, sözügedən təhsil xidmətlərinin hər biri Təhsil Nazirliyi tərəfindən elektron qaydada da həyata keçirilir. Bununla yanaşı elektron qeydiyyat prosesində hər hansı çətinlik çəkən və ya məlumatsız vətəndaşlar bundan sonra "ASAN xidmət" mərkəzlərinə də yaxınlaşaraq konsultativ dəstək ala bilərlər.

# Korrupsionerlərin 2022 - 2026 qorxusu...

### Azərbaycanda büdcə pullarını havaya sovurmağa davam edən məmurların növbəti həbs dalğası başlayır -ŞOK PROQNOZ



***Yola salmaq üzrə olduğumuz həftə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022 - 2026-cı illər üçün Milli Fəaliyyət Planının detalları açıqlanıb.***

Sənəd ölkə başçısının aprelin 4-də imzaladığı sərəncamla təsdiq edilib. Bildirilib ki, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022 - 2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur.

Korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olmuşdur və bu gün də bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalmaqdadır.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

Qeyd edək ki, sonuncu dəfə oxşar sənəd 2020 - 2022-ci illər üçün nəzərdə tutulmuşdu. Həmin sənədin icrası dövrü isə Azərbaycanda çox sayda iri məmurların yalnız vəsifəsini deyil, azadlığını da itirməsi ilə yadda qalmışdı. Belə ki, Xarici İşlər və Mədəniyyət nazirliklərində, bir sıra rayonların icra hakimiyyətlərində xüsusi əməliyyatlar keçirilmiş, yüksək vəzifəli şəxslər, rayon rəhbərləri həbs olunmuş, Elmar Məmmədyarov, Əbülfəs Qarayev kimi nazirlər postlarını itirmişdilər. Bundan başqa, sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov və onun vəzifədə olarkən sağ əli sayılan keçmiş Aparat rəhbəri Əjdər Cəbiyev, Bakı meriyasının sabiq Aparat rəhbəri Rasim Quliyev və s. adını çəkmədiyimiz xeyli eks-məmur da cinayət məsuliyyətinə cəlb olunmuşdu. Bu proses son iki ildə həmçinin bir sıra generalların həbsi ilə müşayiət edilib. Təzəlikcə Müdafiə Nazirliyinin (MN) Maliyyə və Büdcə İdarəsinin rəisi, general-mayor Nizami Məmmədov həbs olunub. O, külli miqdarda (80 milyon 600 min manat) mənimsəməkdə təqsirləndirilir.

Xatırlatmaq yerinə düşər ki, bundan əvvəl Azərbaycanın hüquq-mühafizə orqanlarının Müdafiə Nazirliyində iri maliyyə dələduzluğunun üstünü açdığı barədə xəbər yayılmışdı. Bildirilirdi ki, nazirliyin yüksək rütbəli zabitləri tutulmuşdu. Həmin sırada MN-nin Quru Qoşunlarının maliyyə şöbəsinin rəisi Bayramov Bayram Xəlil oğlu, Sərkərov adına hərbi hissənin maliyyə şöbəsinin rəisi Fərahim Fazil oğlu, MN Maliyyə və Büdcə İdarəsinin şöbə rəisi, polkovnik Rafail Xələfov, zabit Əlizadə Vüsal Ədalət oğlu, MN Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi polkovnik Şirvanov Mahir Məhərrəm oğlu, eyni idarənin başqa bir sabiq rəisi Məlikməmməd Qurbanov var. Həmçinin 2017-ci ilədək Naxçıvanın daxili işlər naziri olmuş general-leytenant Əhməd Əhmədovun və 2016 -2018-ci illərdə Muxtar Respublikanın təhsil naziri postunu tutmuş Məmməd Qəribovun həbsləri də ölkədə kifayət qədər geniş rezonans doğurub.

Bundan başqa, ləğv edilmiş MTN-nin generallarından Mövlam Şıxəliyevlə yanaşı, eyni nazirliyin (keçmiş MTN) başqa bir yüksək vəzifəli generalı, 2021-ci ildə cinayət məsuliyyətinə cəlb olunan Hərbi Əks-Kəşfiyyat İdarəsinin sabiq rəisi general-mayor Nizami Şirinovun mühakiməsi davam edir.

Biz hələ ikinci, üçüncü dərəcəli məmurların həbslərindən danışmırıq. Həmin vəzifəlilərin (onların arasında bələdiyyə rəhbərləri, müxtəlif rayonların müxtəlif sahələr üzrə şöbə müdirləri, idarə rəisləri, baş həkimlər), eləcə də, Rafael Cəbrayılov, Eldəniz Səlimov kimi deputatların azadlıqdan məhrum edildiyini nəzərə alsaq siyahı xeyli uzanır.

Bir sözlə, 2020 - 2022-ci illər üzrə anti-korrupsiya proqramı kifayət qədər səs-küylü həbslərlə, "vurulmalarla" yadda qaldı.

Bəzi ekspertlərin fikrincə, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022 - 2026-cı illər üçün Milli Fəaliyyət Planının təsdiqlənməsi sözügedən prosesin davam edəcəyini göstərir. Çünki hələ də bir çox məmurlar "köhnə hamam, köhnə tas" prinsipi ilə davranaraq, indiyədək tutduğu postu və azadlığını, qanunsuz yolla yığdığı sərvəti itirən vəzifəlilərin aqibətindən dərs çıxarmayaraq qanunsuz əməllərindən əl çəkmək istəmirlər. Bunu vətəndaş şikayətləri, media araşdırmaları, eləcə də Hesablama Palatasının, Maliyyə Nazirliyinin yoxlamaları da təsdiqləyir.

Hesab edilir ki, 2022 - 2026-cı illəri əhatə edəcək korrupsiyaya qarşı yeni Milli Fəaliyyət Planı çərçivəsində növbə məhz belə vəzifə sahiblərinə çatacaq və biz qarşıdakı mərhələdə növbəti səs-küylü məmur həbslərinin şahidi olacağıq.

***Toğrul Əliyev***

## TƏBİB-in rəhbərindən koronavirus xəstələri ilə bağlı açıqlama

***"Hazırda xəstəxanada müalicə alan koronavirus xəstələrinin sayı azdır. Bu da reanimasiyada yatan xəstələrin sayına da təsir edir".***

"Unikal" xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, aktiv koronaviruslu xəstələrdən 50 nəfərinin müalicəsi hazırda xəstəxana şəraitində davam edir: "Onların vəziyyəti stabilləşməyə doğru gedir və qısa müddətdə onlar evə buraxılacaqlar".

# Vilyam Hacıyevdən Füzulinin məşhur qəzəlinə "kiçik düzəliş"...

## Həftənin replikası: "İnanma məmur sözünə, əlbəttə ki..."

***Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilmiş İmişli rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyevin və ailə üzvlərinin 5 milyon manatlıq əmlakları üzərinə həbs qoyuldu.***

Yerli mətbuat həmin əmlakların siyahısını əldə edib və yayıb. Gəlin öncə istintaq orqanı tərəfindən həbs qoyulmuş sözügedən əmlakların siyahısını təqdim baxaq:

- Bakı şəhərində yerləşən mənzil;
- Abşeron rayonu, Xırdalan şəhərində yerləşən 4 fərqli mənzil;
- Sabunçu rayonu, Nardaran qəsəbəsində bağ evi;
- Vilyam Hacıyevin oğlu Məhəmməd Hacıyevin adına rəsmiləşdirilmiş "Rance Rover" markalı avtomobil və ailəsinə məxsus daha 3 avtomobil.



Xatırladaq ki, sabiq icra başçısının cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırma davam etdirilir. O, Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq), külli miqdarda törədildikdə) 313-cü (vəzifə saxtakarlığı) və 228-ci (qanunsuz silah saxlama) maddələri ilə ittiham olunur.

Məhkəmə əmlakların dövlət nəfinə müsadirə edilib-edilməməsinə qərar verəcək.

İndi isə gələk söhbətimizin canına...

Vilyam Hacıyev uzun illər, özü də bir neçə rayonda icra başçısı postunu tutub. 2004-2006-cı illərdə Göygöl Rayon İcra hakimiyyətinin başçısı, 2006-2012-ci illərdə isə Samux Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb.

14 aprel 2012-ci il tarixdən 5 may 2020-ci il tarixədək isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı olub.

Və bütün bu vəzifələri yerinə yetirərkən onun adı müxtəlif qalmaqalların "baş qəhrəmanı" kimi hallanıb. Haqqında sadə vətəndaşların şikayətindən tutmuş incitdiyi sahibkarların giley-güzarına, dağıtdığı büdcə pullarından tutmuş özünə misilsiz sərvət toplamasınadək ən müxtəlif materiallar ölkə mətbuatının "bəzəyinə" çevrilib.

Təsadüfi deyil ki, V.Hacıyev son zamanlar "vurulması" və cəzalandırılması gözlənilən rayon rəhbərlərinin siyahısında daim ilk pillələrdə dayanırdı. Nəhayət, gözləntilər özünü doğrultdu - 16 il boyunca müxtəlif rayonların icra başçısı postunu tutan, həmin müddətdə əməlli-başlı oliqarxlaşan Hacıyev həm postunu, həm də azadlığını itirdi. İndi isə növbə onun sahib olduğu əmlakların müsadirəsinə çatıb. Bu yerdə maraqlı xatırlatma: 2019 ildə Yerli mətbuatda Vilyam müəllimin Azərbaycanda və onun hüdudlarından kənardakı sərvətinin bir hissəsinin siyahısı yayılıb. Həmin "gözqamaşdırıcı" siyahıdan bəlli olur ki, sabiq başçı:

- Bakıda, Həsən Əliyev küçəsində villa
- Bakı, "Sahil" metrostansiyası üzərindəki çoxmərtəbəli binada 5 otaqlı mənzil
- Bakı, Nərimanov rayonu, S. Rəhman küç. ev 45 ünvanında mənzil
- Bakı, Teymur Əliyev küç. "Milyonerlər məhəlləsi"ndə qiyməti 25 milyon manat civarında olan villa
- İmişli rayonunda, H. Əliyev küç. ev 126 ünvanında mənzil
- Gəncə şəhəri, Yeni Gəncə küç. ev 53 ünvanında mənzil
- Dubayda milyonluq biznesi
- Qazaxıstanda tikinti biznesi
- İmişli, Daşkəsən, Gəncə, Göygöl rayonu və Bakıda müxtəlif ticarət obyektləri, torpaq sahələri, şadlıq evləri və çoxsaylı mülk sahibidir.

Siyahı yayıldıqdan sonra gözlənilməz hadisə baş verir: o vaxtadək barəsindəki çoxsaylı ittihamlara laqeyd yanaşan, cavab verməк ehtiyacı hiss eləməyən, ümumiyyətlə, media ilə arasına "Çin səddi" hörən sabiq başçı nəyə görəsə danışmaq qərarına gəlir, məlum siyahını təkzib edir (bu, əlbəttə ki, təəccüblü deyil!), ardınca isə sensasion açıqlama verir. İmişlidə, şəkər zavodunda çalışan işçilərin ailələri üçün tikilmiş yataqxanada, aylıq 124 manat ödəməklə kirayə qaldığını bildirir!

Lap sonda da mətbuatdan təkzib verməsini, əks halda məhkəməyə müraciət edəcəyini istəyir!

Bundan cəmi bir il sonra V.Hacıyev korrupsiya şübhəsi ilə saxlanıldı, kirayə qaldığı (!) evindən milyonlarla manat çıxdı. Aydın oldu ki, bu kirayə məsələsi Vilyam Hacıyevin taladığı büdcə pullarını, qanunsuz yollarla əldə etdiyi sərvəti gizləmək, ümumiyyətlə, gözdən pərdə asmaq üçün düşünülmüş plandan başqa bir şey deyilmiş. İndi isə istintaqla təsdiqlənir ki, ayı 124 manata kirayə qalan sabiq başçıya məxsus mənzillərin nə sayı var, nə hesabı!

Bir sözlə, Vilyam Hacıyevin növbəti dəfə təkzibi də "fıs" çıxdı, mətbuata hədə-qorxusu da...

Hətta biz onun timsalında böyük şairimiz Füzulinin məşhur qəzəlinə "kiçik düzəliş"in də şahidi ola bilərik: "Aldanma ki, məmur sözü əlbəttə yalandır!"

Qoy digər vəzifəli şəxslər də bu nümunədən dərs çıxarsınlar. Özlərinin qanunsuz əməlləri ilə bağlı mətbuatda hansısa iddialar, məlumatlar yer aldıqda medianı təqsirləndirib ona hədə-qorxu gəlməkdən, barələrindəki hər xəbəri tələm-tələsik, ümumi sözlərlə təkzib etməkdənsə Vilyam müəllimin aqibətini düşünsünlər. Bilsinlər ki, istənilən yalanın gec-tez gün işığına çıxmaq kimi bir vərdişi var!..

***Sənan Mirzə***



# XİN üçtərəfli görüşlə bağlı məlumat yaydı

***6 aprel 2022-ci il tarixində Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Tərəflərin hələ 2021-ci ilin 15 dekabr tarixində baş tutan birgə görüşünün davamı olaraq keçirilən bu görüş, bölgədəki vəziyyətin müzakirəsi, o cümlədən bölgənin təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərinin müzakirəsinə həsr olunub.

Görüş zamanı post-münaqişə mərhələsində bölgənin inkişafı ilə bağlı Azərbaycanın hər zaman çıxış etdiyi prinsiplər, o cümlədən 2020-ci ilin 9/10 noyabr üçtərəfli bəyanatın müddəalarına tam riayət olunması, tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması və nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib. Görüş nəticəsində Aİ Şurasının Prezidenti bəyanat ilə çıxış edib.

Görüş zamanı humanitar tədbirlərin tərəflər arasında sülh və etimadın təşviq olunması baxımından əhəmiyyəti, o cümlədən itkin düşmüş şəxslərlə bağlı məsələlər, minaların təmizlənməsinin vacibliyi vurğulanaraq, Aİ-nin bölgədə aparılan humanitar minatəmizləmə, eləcə də reabilitasiya və rekonstruksiya işlərinə dəstək verəcəyi qeyd olunub.

Hələ bir il bundan öncə Azərbaycan tərəfindən irəli sürülən təşəbbüs və bir müddət öncə tərəfimizdən təqdim edilən baza prinsipləri əsasında iki ölkə arasında sülh sazişinin hazırlanmasına başlanılması ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə təlimat verilib.

İki dövlət arasında sərhədin delimitasiya və demarkasiyasının vacibliyi ifadə edilib və bu xüsusda, cari ilin aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının təşkil edilməsi razılaşdırılıb.

Həmçinin iki ölkə arasında nəqliyyat və kommunikasiyaların, o cümlədən həm dəmir yolları, həm də avtomobil yollarının açılmasının əhəmiyyəti qeyd edilib. Aİ-nin nəqliyyat bağlantı infrastrukturunun inkişafını dəstəkləməyə hazır olduğu bir daha bəyan edilib.

Beləliklə də, Aİ Şurasının Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşü, Azərbaycanın maraqlarına uyğun olaraq və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması istiqamətində atılmış növbəti önəmli addımdır.

# Birgə Sərhəd Komissiyası yaradılacaq

***Azərbaycan və Ermənistan aprelin sonunadək Birgə Sərhəd Komissiyasının çağırılması barədə razılığa gəliblər.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla üçtərəfli görüşünün yekunları üzrə yaydığı bəyanatda deyilir.

"Sərhədlərinin delimitasiyası və demarkasiyası vacib olacaq; bu məqsədlə 26 noyabr 2021-ci il tarixli Soçi Bəyanatına uyğun olaraq aprelin sonuna qədər Birgə Sərhəd Komissiyasının çağırılması da qərara alınıb. Birgə Sərhəd Komissiyasının mandatı aşağıdakılardan ibarət olacaq: Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyası; sərhəd boyunca və onun yaxınlığında sabit təhlükəsizlik vəziyyətini təmin etmək", - deyə bəyanatda bildirilir.



## Ən çox bu universitetlərin tələbələrinə kredit verilib

***2021-2022-ci tədris ilində 3590 tələbəyə təhsil tələbə krediti ayrılıb.***

Bu barədə Təhsil Tələbə Krediti Fondunun 2021-2022-ci tədris ilinin payız semestri üzrə hesabatında qeyd edilib. Hesabata görə, kredit verilən tələbələrin 2638 nəfəri ali məktəblərin Azərbaycan bölməsində, 136 nəfəri rus, 125 nəfəri ingilis dili bölməsində təhsil alır.

Ən çox təhsil tələbə krediti Azərbaycan İqtisad Universitetinin tələbələrinə ayrılıb. Bu barədə Təhsil Tələbə Krediti Fondunun 2021-2022-ci tədris ilinin payız semestri üzrə hesabatında qeyd olunub.

Hesabata əsasən, 229 UNEC tələbəsinə ötən tədris ili müddətində təhsil krediti verilib.

Təhsil krediti alan tələbələrin sayına görə sonrakı sıraları Bakı Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti və Bakı Biznes Universiteti tutur.

## "Qırmızı Ürəklər" Fondunun dəstəyi ilə açılış mərasimi keçirildi

***"Qırmızı Ürəklər" (Red Hearts) Fondunun, Qan Donorları Assosiasiyasının, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin, Fairmont Hotelinin və Mərkəzi Qan Bankının birgə tərəfdaşlığı ilə 6 aprel 2022-ci il tarixində Fairmont hotelində Gənc Qan Donorlarının III Ümumrespublika Forumunun rəsmi açılış mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, forumun məqsədi Respublikada qan donorluğunun inkişafına dəstək, gələcək nəslin qorunması və eyni zamanda irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqların sağlamlığının bərpası üçün qan donorluğu istiqamətində cəmiyyətin maarifləndirilməsidir.

Forumda Qan Donorları Assosiasiyasının sədri Fuad Əsgərov, "Qırmızı Ürəklər" Fondunun vitse-prezidenti Yusif Poladov, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Mərkəzi Qan Bankının müdir müavini Xəyalə Qafarova, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini Rəşad Mahmudov, millət vəkili İlham Məmmədov, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov çıxış edərək, Forumun əhəmiyyətindən, ölkə ictimaiyyətinin diqqətini bir daha adı çəkilən sahəyə yönəltməklə qan verənin faydalarını daha geniş auditoriyaya çatdırılmasının vacibliyindən danışdılar.

Forum çərçivəsində paytaxtdan və regionlardan seçilmiş 30 nəfər gənc "Könüllü donor şəbəkəsinin" qurulması mövzusunda təşkil olunan 3 günlük təlimlərdə iştirak ediblər. Gənclər arasında yaradılan kommunikasiya və aldıqları təlimlər imkan yaradacaq ki, ölkədə qan donorluğu istiqamətində mobil könüllü qruplar olaraq fəaliyyət göstərsinlər.

Qeyd edək ki, "Qırmızı Ürəklər" Fondu 2019-cu ildə Kapital Bank-ın könüllü əməkdaşlarının təşəbbüsü ilə yaradılıb. Hazırda Fond kimi fəaliyyətini davam edən təşkilat, əsasən uşaq evlərinə, sığınacaqlara və digər ehtiyacı olanlara yardımlar edir. https://redhearts.az saytına daxil olmaqla fondun fəaliyyəti, gördüyü xeyirxah işlər, gələcək planları və digər maraqlı məlumatları əldə etmək olar.

# Elmar Məmmədyarov "tikinti maqnatı"na çevrilir

### Keçmiş nazir böyük biznesə girişir, bəs onun əsas hədəfi nədir?

***Xeyli vaxtdır kölgəyə çəkilən sabiq xarici işlər naziri Elmar Məmmədyarov son zamanlar tez-tez görünməyə başlayıb. Belə ki, o, öncə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) İcraiyyə Komitəsinin iclasında gözə dəyib. AFFA prezidenti Rövnəq Abdullayevin sədrlik etdiyi iclasa İcraiyyə Komitəsinin bütün üzvləri qatılmış, müzakirə olunan məsələlərə dair müvafiq qərarlar qəbul olunmuşdu.***

İclasdan sonra çəkilən fotoda yer alan sabiq XİN başçısının nisbətən arıqladığı və qalstuk taxmadığı diqqətdən qaçmamışdı.

Bunun ardınca isə Məmmədyarov ötən ayın ortalarında yerli mətbuata hazırkı fəaliyyəti haqda danışmışdı. "İndi özüm üçün işləyirəm" - o açıqlamasının bir yerində demişdi. Həmin vaxt bu barədə bəhs edərkən yazmışdıq ki,eks-nazirin artıq özü üçün işlədiyi barədə dedikləri ilə bağlı kifayət qədər ilginc detallar mövcuddur, odur ki, ayrıca bəhs etməyi daha doğru sayırıq.

Söhbət nədən gedir?

Bəzi iddialara görə, Məmmədyarov bundan sonra böyük biznesə atılmaq fikrindədir. Onun xüsusilə tikinti sektoru ilə maraqlandığı deyilir.

Əslində keçmiş nazirin biznesi o, hələ XİN başçısı postunu tutarkən mövcud idi. Bu barədə mətbuatda yer alan və rəsmi olaraq təsdiqlənməsə belə, təkzib də edilməyən məlumatlara görə,

Elmar müəllimin ölkə daxilində tikinti biznesi mövcuddur. Eks-nazirin əsas gəlirinin də məhz bu biznesdən formalaşdığı iddia olunur, eyni zamanda vurğulanırdı ki, onun bu biznesi XİN-də yüksək vəzifə daşıyan Elxan Azayev adlı şəxs tərəfindən idarə edilir.

İddialara görə, Məmmədyarov 2004-cü ildə nazir vəzifəsinə təyin olunandan sonra həmin şəxsi Xa-



rici İşlər Nazirliyinin Həmkarlar İttifaqı komitəsinə rəhbər gətirib. Nazirin təqdimatı ilə 2012-ci ilin iyulunda Azayevə ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbəsi verilib, sonra da Avropa Birliyi ölkələrindəki səfirlərlə iş sektorunun rəhbəri təyin edilib.

Yenə iddialara görə, Məmmədyarov 2008-ci ilin sentyabrında Elxan Azayevlə tikinti biznesinə qərar verir və "DİPLOMAT 2008" Mənzil Tikinti Kooperativini qeydiyyatdan keçirib. Şirkət 25 manat nizamnamə kapitalı ilə Vergilər Nazirliyinin Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsində qeydiyyata alınıb. Hüquqi ünvanı Nəsimi rayonu, Süleyman Rüstəm küçəsi ev 33 A, 53-dür. Ofisi XİN-in Konsulluq İdarəsinin keçmiş binası ilə üzbəüzdə yerləşir.

Dövlət reyestri məlumatlarına görə qanuni təmsilçisi Elxan Çərkəz oğlu Azayevdir.

Şirkəti idarə edən Azayevin diplomat kimi fəaliyyətilə bağlı açıq mənbələrdə heç bir məlumata rast gəlinməyib, əvəzində isə onun adı bir neçə dəfə şirkətin satdığı mənzillərlə bağlı məhkəmə çəkişmələrində çəkilib.O da bildirilib ki, şirkət daşınmaz əmlak bazarına bahalı mənzillər təqdim edir. Məsələn, "DİPLOMAT 2008" MTK tərəfindən Xarici İşlər Nazirliyinin arxasında, Yasamal rayonu 422-ci məhəllə, M.İbrahimov küçəsi 53 (Nizami metrosuna yaxın) ünvanında inşa edilmiş 20 mərtəbəli, 110 mənzilli binada 166 kv metrlik təmirsiz mənzil 600 min manat ətrafında satışa çıxarılıb.

Bundan başqa, şirkət Sumqayıtda iri ticarət mərkəzi tikib, həmçinin Ağ Şəhərdə 1-ci fəvvarələr küçəsində 7 bloklu binaların tikintisi ilə məşğul olub. Araşdırmalarımız zamanı bu binaların birində 160 kvadratmetrlik mənzilin 290 min manata (və ya 170 min 588 dollara) satışa çıxarıldığı aydınlaşıb.

İddialara görə, hazırda Elmar Məmmədyarov tikinti biznesinə birbaşa özü nəzarət edir, dövlət reyestrində baxmayaraq ki, onun və ailə üzvlərinin adına yaradılmış hansısa şirkətə rast gəlinmir.

Xatırladaq ki, sabiq nazir hələ vəzifədə olarkən onun oğlu Emin Məmmədyarovun 2015-ci ilin iyulunda ABŞ-da, Nyu Yorkun Manhetten səmtində, Linkoln meydanı yaxınlığında sahəsi 118,45 kvadrat metr (1275 kvadrat fut) olan mənzil aldığı, bunun üçün həmin mənzilə 2 milyon 50 min ABŞ dollar ödədiyi aşkarlanmışdı. Elmar müəllim özü də o zaman bunu təsdiqləmiş, lakin oğlunun bu qədər pulu hardan əldə etdiyini açıqlamamışdı. Belə görünür, sözügedən pullarda korrupsiya ilə bərabər eks nazirin tikinti biznesindən əldə etdiyi gəlirlərin payı da az deyildi. Hərçənd həmin biznes də elə korrupsiya predmetidir, çünki ölkə qanunvericiliyinə görə məmurlar biznes fəaliyyəti ilə məşğul ola bilməzlər.

İndi isə Elmar müəllim vəzifəsizdir və öz təbirincə desək, "özü üçün işləyir". Odur ki, tezliklə XİN-in sabiq başçısının iri biznes imperiyası qurduğu, əməlli-başlı tikinti maqnatına çevrildiyi barədə xəbərlər yayılsa, bu kimsəni təəccübləndirməməlidir...

***Toğrul Əliyev***

# Məcburi köçkünlər üçün təlim keçiriləcək

***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Azərbaycan Bank Tədris Mərkəzinin (ABTC) birgə təşkilatçılığı ilə məcburi köçkünlər üçün təlimlər keçiriləcək.***

"Unikal" xəbər verir ki, Azərbaycan Bank Tədris Mərkəzi tərəfindən ödənişsiz keçirilən təlimlərin əsas məqsədi vətəndaşların maliyyə savadlılığı üzrə məlumatlılığının artırılmasıdır. Maliyyə savadlılılığının artırılması mövzusunda keçirilən təlim istehlak və ipoteka kreditləri, zaminlik, hökumətin fermerlərə dəstək mexanizmləri, hökumətin kiçik və orta biznesə dəstək mexanizmləri, sığorta sahələrini əhatə edəcək. Təlimlər 15 aprel - 5 may tarixlərində onlayn rejimdə keçiriləcək.

Qeyd edilən tədbirlərdə iştirak etməklə məcburi köçkünlər yuxarıda adıçəkilən mövzular üzrə dəyərli biliklər alacaq və mövzu üzrə onları maraqlandıran suallar mütəxəssislər tərəfindən cavablandırılacaqdır.



**6.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı.**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Uşaqları narkotik bəlasından necə xilas edək?

## Nazirlik: "Məktəblərdə şagirdləri narkomaniya və digər zərərli vərdişlərin fəsadları barədə məlumatlandırmaq, onları belə neqativ əməllərdən çəkindirmək məqsədilə maarifləndirici tədbirlər mütəmadi olaraq keçirilir"



***"Məktəbli qızlar arasında narkotik aludəçilərinin sayı artıb". Bu sözləri deputat Fazil Mustafa deyib. Deputat bildirib ki, avara uşaqlarla maraqlanmaq lazımdır. F. Mustafa qeyd edib ki, 8-9-cu sinifdə oxuyan qızlar narkotik vasitələrin aludəçisinə çevriliblər.***

F.Mustafanın sözlərinə görə, bəzən məktəblərin tualetlərində narkotik vasitələr tapıldığı deyiləndə inkar edirlər:" Deyirlər ki, əvvəllər var idi, indi yoxdur. Bunu ört-basdır etməklə məşğuluq. Birinin oğludur, birinin bacısıdır, birinin qızıdır, bu bəla hamısına təsir edən məsələdir. Bilmək olmaz kimin qapısını döyəcək. Bununla hamılıqla mübarizə aparmaq lazımdır".

Qeyd edək ki, hazırda rəsmi olaraq 33 min 778 nəfər narkoman qeydiyyatdadır. Onların da 618 nəfərini qadınlar təşkil edir. Ölkəmizdə narkoman uşaqların sayı ilə bağlı dəqiq statistika olmasa da, məktəblilər arasında narkotik aludəçilərinin olduğu, hətta onların narkotik maddələrin satışında kuryerə çevrilməsi halları var.

Uşaqların narkotik maddələrin qurbanına çevrilməsinin bir səbəbi də bu təhlükəli maddə barədə maarifsizlikdirsə, digər səbəb uşaqların və gənclərin asudə vaxtlarının düzgün təşkil edilməməsi, onların fiziki və mənəvi inkişafı üçün zəruri tədbirlərin görülməməsidir.

Psixoloq Azad İsazadə "Unikal"a deyib ki, uşaqlar narkotiklə bağlı məlumatı dostlarından, yaşıdlarından, kinolardan hansısa formada alırlar: "Ona görə də, narkotikin zərərləri haqda zamanında düzgün məlumatı almaq üçün uşaqlarla açıq danışmaq lazımdır. Çünki, uşaqda narkotikə maraq məlumat azlığından yaranır. Unutmaq lazım deyil ki, uşağa ilkin olaraq kim narkotik haqda məlumat versə, onun yaddaşında həmin məlumat qalır. Uşaq bu barədə ilk məlumatı valideynindən alsa, bu zaman onda narkotikə qarşı lazımi məlumatlar formlaşacaq.

Təhsil Nazirliyindən isə bildirdilər ki, ümumi təhsil müəssisələrində şagirdləri narkomaniya və digər zərərli vərdişlərin fəsadları barədə məlumatlandırmaq, narkomanlığın cəmiyyətdə yaratdığı sosial bəlalar və insanların sağlamlığına vurduğu ziyanlarla bağlı məktəblilər arasında təbliğat aparmaq, onları belə neqativ əməllərdən çəkindirmək məqsədilə maarifləndirici tədbirlər mütəmadi olaraq keçirilir. Maarifləndirici tədbirlərdə məktəblilərə narkotik vasitələrin ziyanlarından, real örnəklərdən, istənilən tütün məmulatlarının orqanizmdə törətdiyi böyük fəsadlardan bəhs olunur. Onlara zərərli vərdişlərdən uzaq olmaq və sosial bəlalara qarşı mübarizə aparmaq üçün tövsiyələr verilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən isə bildirdilər ki, son dövrlər uşaqların internet və sosial şəbəkələrdən nəzarətsiz istifadəsi nəticəsində əldə etdikləri informasiyalar bəzən onlarda zərərli vərdişlərə-narkotik, psixatrop maddə, energetik içkilər, internet asıllığına meyil yaradır.

Təəssüflər olsun ki, erkən yaşlarda yaranan bu vərdişlər gələcəkdə daha çox neqativ halların baş verməsinə gətirib çıxarır. Qısa müddət ərzində qazanılmış bu kimi vərdişlərdən qurtulmaq heç də asan olmur və bunun üçün uzun vaxt tələb olunur. Bununla bağlı valideynlər uşaqlara qarşı münasibətdə daim səbirli və təmkinli olmalıdırlar.

Qeyd edək ki, 2 iyun tarixində uşaq hüquqlarının müdafiəsi üzrə milli strategiya qəbul edilib. Eyni zamanda 27 noyabr tarixində uşaq Milli Fəaliyyət qanunu qəbul olunub. Bu qanun çərçivəsində də uşaqların fiziki, ruhi inkişafı, ümdə maraqlarının qorunması nəzərdə tutulur. Yetkinlik yaşına çatmayan uşaqların fiziki inkişafının təmin edilməsi üçün idman yarışlarında, idman hazırlıqlarında, beyin inkişafında, yeni texnologiyaların tətbiqində, eyni zamanda ali və orta təhsil ocaqlarında yeni dərsliklərin hazırlanması ilə bağlı və s. bu kimi planlar var.

Ən böyük amillərdən biri də uşaqların kiber təhlükəsizliyinin təmin edilməsidir ki, bu da onların fiziki və mənəvi inkişafına təsir edir. Bunun üçün də, dediyim kimi dövlət komitəsi tərəfindən proqram təminatları yaradılıb. Bunun da davamı olaraq digər tədbirlər aparılır. Sosial şəbəkələrdə, virtual həyatda təhlükəsizliyin təmin edilməsi məqsədilə təbirlər görülür.

Xatırladaq ki, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında prezident sərəncam imzalayıb. Həmin sərəncamda uşaqların fiziki və mənəvi inkişafı üzrə müəyyən tədbirlər nəzərdə tutulub. Buraya 2020-2025-ci illər ərzində uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində işlərin gücləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili, uşaq istirahət yerlərinin, idman və mədəniyyət ocaqlarının fəaliyyətinin təkmilləşdirilməsi, uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların bədən tərbiyəsi və idmana cəlb edilməsi məqsədilə infrastrukturun yaxşılaşdırılması daxildir. Sərəncamda həmçinin qeyd edilib ki, təhsildən yayınma hallarının qarşısının alınması məqsədilə nəzarətin gücləndirilməsi, uşaqların peşəyönümü meyillərini özündə ehtiva edən sorğuların hazırlanması və həyata keçirilməsi üzrə də tədbirlər həyata keçirilməlidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# "Brüsseldə vurğulanan bəndlər Azərbaycanın xeyrinədir" - Politoloq

***"Tərəflər həll edilməmiş humanitar məsələlərin aradan qaldırılmasının zəruriliyini vurğulayıblar. Bu sıraya Avropa İttifaqının minatəmizləmə, münaqişədə zərər çəkmiş əhaliyə yardım, reabilitasiya və yenidənqurma işlərinə ekspert və maliyyə dəstəyi aiddir. Ermənistan rəsmiləri hər yerdə Azərbaycan əleyhinə "erməni əsirlərin qaytarılması" mövzusunu qaldırırlar. Bunun qarşılığında Azərbaycan rəsmiləri Birinci Qarabağ savaşında minlərlə azərbaycanlı əsirin taleyi mövzusunu gündəmə gətirirlər. Ermənistan bu mövzunun üstündən sükutla keçməyə çalışır".***

Bunu "Unikal"a açıqlamasında politoloq Elxan Şahinoğlu Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən danışarkən deyib.

"Danışıqların Minsk Qrupu əvəzinə Avropa İttifaqı çərçivəsində aparılması Azərbaycan üçün faydalıdır. Azərbaycanın Avropa İttifaqı və İttifaqa daxil olan ölkələrlə sıx əməkdaşlığı var, Rusiyanın Ukraynada apardığı işğalçı müharibə fonunda Avropanın Azərbaycan neftinə və qazına ehtiyacı artıb. Brüsselin vasitəçiliyə marağını nəzərə alaraq rəsmi Bakının Avropa İttifaqı ilə strateji əməkdaşlıq sazişini imzalanması prosesini sürətləndirməsinə ehtiyac var.

Beləliklə, Brüsseldə vurğulanan bəndlər Azərbaycanın xeyrinədir. Ancaq bu o demək deyil ki, ortaq bəyanatda göstərilən bəndlər qısa müddətdə yerinə yetiriləcək. Sərhədlərin müəyyənləşməsiylə bağlı danışıqlara başlanılması zərurəti İkinci Qarabağ müharibəsindən sonra bir neçə bəyanatda əks olunub. Buna baxmayaraq, Ermənistan qəbul etdiyi bəyanatlara zidd olaraq prosesi uzadır və buna görə təzyiqlə üzləşmir. Dəhliz məsələsində də irəriləyiş yoxdur. Liderlər birinci dəfə Brüsseldə 2021-ci ilin dekabrın 14-də görüşmüşdülər. O zaman qəbul olunan ortaq bəyanatda dəmiryolunun fəaliyyətinin bərpası ilə bağlı razılıq əldə olunmuşdu. Üstündən 3 aydan çox vaxt keçib və İrəvan heç bir addım atmayıb. Ermənistan prosesi uzatdığına görə Azərbaycan İran üzərindən dəmiryolunun çəkilməsiylə bağlı Tehranla memorandum imzaladı.

Avropa İttifaqının vasitəçilik təşəbbüslərində Rusiya amilini də nəzərə almaq lazımdır. Brüsseldə liderlərin birinci görüşü zamanı Rusiya hələ Ukraynaya hərbi müdaxilə etməmişdi və o zaman Kreml Avropa İttifaqının vasitəçiliyinə bir qədər səbirli yanaşa bilərdi. Ancaq Rusiya Ukraynaya qarşı işğalçı müharibəyə başladıqdan və Avropa İttifaqı Moskvaya qarşı sərt sanksiyalar tətbiq etdikdən sonra Kreml Brüsselin Azərbaycanla Ermənistan arasındakı vasitəçiliyinə mane olmağa çalışacaq. Təsadüfi deyil ki, Nikol Paşinyan Brüsseldə olarkən İrəvanda onun əleyhinə mitinq keçirilirdi, Tovuzda atəşkəs pozulub. Digər tərəfdən Sergey Lavrov erməni həmkarı Ararat Mirzoyanı aprelin 8-də Moskvaya çağırıb. Yəqin Mirzoyandan Brüssel görüşünün detallı hesabatı tələb ediləcək", - deyə o qeyd edib.

***Seymur Əli***



# "Div, elə anadan div doğulur"

***Dünya artıq ölümün sudan ucuz olduğu qocalığına çatıb. Biz isə qəddi bükülmüş, nə vaxt və necə yaradıldığını tam bilmədiyimiz dünyadan mədət umub-ədalət gözləyirik. Bu ki, əsl komediyadır! Əslində, mən də bu dünyanın cavan vaxtını görmək istəyərdim. Təəssüf ki, o da babam kimi mən doğulanda artıq çox qocalmışdı. İndi isə lap əldən düşüb. Bəlkə də ölüb. Təsəvvür edin, babam digər nəvələri ilə vaxt keçirib, onlarla oynayıb, parka gedib, mən isə gözümü açıb saç-saqqalı ağarmış bir qoca görmüşəm. Dünya da eynilə belədir. O, indi öz canının hayındadır. Onun ayrı-ayrı hissələrində yaradılan dövlətlər dünyanı içindən parçalayır. Yəni alma qurdu almanı yeyərək məhv edir, sonda qurd özü də ya çox yeməkdən, ya da almadan çıxdığı üçün məhv olur. Bəs bu barədə ağac nə düşünür? Yəni o, öz yaratdığından bu qədər bezib? Bəlkə o, artıq çürümüş, qurdun məhv etdiyi almanı özündə saxlamaq istəmir? Bəlkə də son belə olur...***

Nəsiminin oyatmaq istədiyi qafillər birdəfəlik qış yuxusuna gedib. Təəssüf ki, Əmir Teymur haqlı idi... Dünya özü qılınc və qorxu üzərində bərqərar olub. Xırda həşərat-iri həşəratdan qorxur, qoyun-qurddan, gücsüz insan-güclüdən, cəmi-bəşər də Allahdan. Dünyanın özü də qorxu üzərində bərqərardır. Hanı o cümlə-aləmin sirrinə vaqif olan kamil insanlar? Yəqin onlar artıq cahillərə məğlub olaraq tarixə qovuşub, ya da öz qorxusuzluqlarına qurban gediblər?! Əmir Teymurlar qılınc oynadıb-qan töksə də, tarix onları daim xatırlayacaq...

İsgəndərlər, Çingiz xanlar, Hitlerlər, Putinlər həmişə olub və olacaq. Axı bu gün fateh adlandırdığımız tarixi işğalçıların indikilərdən nə fərqi var? Məncə, tarix onların vurduğu yaranı zamanla unudur, yerdə isə qazanılmış "qələbə" qalır. "Alfa" nəsillər isə bu yaranı deyil, sözügedən dırnaqarası qələbəni görəcək. Rusiya da müharibəyə başladığı ilk gündən məğlub hesab edilsə də, tökülən nahaq qanları, necə deyərlər, yağış yuyub-gün qurudacaq... Yerdə isə 21-ci əsrin üçüncü onilliyində yüz minlərlə qoşun və texnika ilə edilən hücum və nəticə qalacaq. Dünya da Azərbaycan xalqı kimi unutqandır. Burda fərq bir şeydən ibarətdir, dünya çox qoca olduğu üçün unudur, bizsə çox cavan olduğumuz üçün...

Div, elə anadan div doğulur! Tanrının əzizləyərək böyüməsinə imkan verdiyi divlər bu gün yerdə Allahlıq eləməyə çalışır. Belə başa düşürəm ki, Nuh deyib-peyğəmbər deməyən bu divlər dünya insanlarının cəmini yeyib-bitirməsə, gözləri doyan deyil. Əlindən əsasını alsan yıxılmağa hazır olan dünya da, demokratiyanın, ədalətin beşiyi adlandırdığımız nəhəng dövlətlər də, elə özümüz də zülmə məruz qalana öz kömək əlimizi uzada bilmiriksə, demək, həqiqətən də bu kainat məhv olmağa məhkumdur! Yenə olmadı, ey haqq, bir də başdan çək! Rejissoru və ssenaristi olacağın bir dahakı filmi elə çək ki, insan öz əcəli ilə sənə gəlsin, uşaqlar ölməsin, silah olmasın, haqq boğulmasın...

***Ağarza Elçinoğlu***

# Sertifikat ala bilməyənlərin dövlət qulluğuna xitam veriləcək

***"Mayın 8-də dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanı keçiriləcək. Dövlət qulluğu üzrə sertifikat müddəti 5 ildir".***

Bunu Dövlət İmtahan Mərkəzinin Hüquqi-təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov bildirib.

Onun sözlərinə görə, sertifikatın müddətindən 4 il keçdikdən sonra, 12 ay, yəni 5-ci il bitənə qədər həmin şəxslər dövlət qulluğunda fəaliyyətini davam etdirmək üçün vəzifənin aid olduğu alt qrup üzrə imtahanda iştirak etməli və sertifikat əldə etməlidilər.




Şöbə müdiri qeyd edib ki, 2016-cı ildən, yəni dövlət qulluğu ilə bağlı sertifikat sistemi qəbul edilmədən əvvəl dövlət qulluğunda işləyən şəxslər əgər öz işlərini davam etdirmək istəyirlərsə sertifikat əldə etmələrinə ehtiyac yoxdur: "Ancaq dövlət qulluğu stajı 10 ili ötməyən həmin şəxslər daha yüksək vəzifəyə iddia edirlərsə, bu zaman onlar da sertifikat əldə etmək üçün imtahan verməlidilər".

Vüqar Əsgərov vurğulayıb ki, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə sertifikatı ala bilməyən şəxslərin dövlət qulluğuna xitam verilə bilər.

# Azərbaycanda bu şəxslərin işdən çıxarılması qadağandır

***Azərbaycanda hamilə və ya 3 yaşınadək uşağı olan anaların işdən azad edilməsi qadağandır.***

Mövcud qadağa ölkə qanunvericiliyi ilə tənzimlənir. Belə ki, hamilə və ya 3 yaşınadək uşağı olan analardan əlavə bu şəxslərin də Əmək müqaviləsinin ləğvi qadağan olunur:

Üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin;

Yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən işçilərin;

Əmək qabiliyyətini müvəqqəti itirən işçilərin;

İşçinin şəkərli diabetlə və ya dağınıq sklerozla xəstə olması səbəbinə görə;

Həmkarlar ittifaqları təşkilatının və ya hər hansı siyasi partiyanın üzvü olması motivinə görə;

Öhdəsində sağlamlıq imkanları məhdud 18 yaşınadək və ya I dərəcə əlilliyi olan ailə üzvü olan işçilərin;

Məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda, habelə kollektiv danışıqlarda iştirak etdiyi müddət ərzində işçilərin bu Məcəllənin 70-ci maddəsi ilə müəyyən edilmiş əsaslarla əmək müqaviləsinin ləğv edilməsi qadağandır.

Mövzu ilə bağlı Dövlət Əmək Müfəttişliyi Xidmətindən BAKU.WS-ə bildirilib ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 79-cu maddəsinə əsasən hamilə, habelə üç yaşınadək uşağı olan qadınların işəgötürən tərəfindən Əmək Məcəlləsinin 70-ci maddəsi (müddətli əmək müqaviləsinə xitam verilməsi qaydası) ilə müəyyən edilmiş əsaslarla əmək müqaviləsinin ləğv edilməsi (70-ci maddənin "a" bəndi (müəssisə ləğv edildikdə) və 73-cü maddə ilə xitam verilən hallar istisna



olunmaqa) qadağandır.

"Qanunvericiliyə uyğun olmadan xitam verildiyi halda Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən işəgötürən inzibati məsuliyyətə cəlb olunur və qanun pozuntusunun aradan qaldırılması üçün müvafiq tədbir görülür, pozulmuş hüquqlarının bərpası təmin edilir", - deyə məlumatda qeyd olunur.

# DİM-ə qarşı kütləvi etiraz

## Buraxılış imtahanlarından narazılar rekord həddə

***Dövlət İmtahan Mərkəzi (DİM) 5-6 mart tarixli buraxılış imtahanlarının nəticələrini açıqladıqdan sonra məlum oldu ki, xeyli abituriyent aldığı qiymətlərdən narazıdır.***

"Unikal"ın məlumatına görə, narazılıqlar əsasən yazı işlərinin (açıq tipli tapşırıqların cavabları) yoxlanılması prosesindəndir. Bir çox şagirdlər açıq sualların cavablarına verilən qiymətlərin obyektiv olmadığını, aşağı bal yazıldığını iddia ediblər.

Qeyd edək ki, buraxılış imtahanında şagirdlərə tədris dili fənnindən 10, riyaziyyat fənnindən 7, xarici dil fənnindən 7 yazılı cavab tələb edən açıq tipli sual təqdim olunub.

Nəticələrdən narazı olan şagirdlər 4-6 aprel tarixlərində apellyasiya şikayəti veriblər.




İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM tərəfindən 11 aprel tarixindən etibarən onlayn ("Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesi təşkil ediləcək.

Dövlət İmtahan Mərkəzindən bildirilib ki, 5-6 mart tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələrindən narazı qalan 5905 şagird qeydiyyatdan keçib.

Təhsil ekspertləri bunu rekord göstərici hesab edirlər. Bildirilir ki, son illər imtahanların nəticələrindən hələ bu qədər narazılıq qeydə alınmamışdı.

# Şəhid adının müqəddəsliyi



***Dağlar diyarı Lerikin qartal balası Altay Tahir oğlu Mövlanov 44 günlük İkinci Qarabağ müharibəsində Füzuli istiqamətində gedən ağır döyüşdə qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalıb. Vətən yolunda canını qurban etdiyinə görə onun bu ölümü ömrünün sonu olmur.***

Necə deyərlər, 20 yaşında Altay əbədiyyət adlı dünyasına qovuşmaqla özünə ürəklərdə yurdyuva qurur. Qərinələr keçəcək gələn nəsillər tərəfindən Altay Vətənini özündən artıq sevən igid, mərd döyüşçü, layiqli vətəndaş kimi hər an ehtiramla xatırlanacaq. Dövlət tərəfindən layiq görüldüyü "İgidliyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları onun keçdiyi şərəfli yola nümunə olacaqdır.

Doğma Lerik şəhərində Vətən, torpaq sevgisi ilə boya-başa çatan Altay 2018-ci ildə əsgər yaşına çatanda sevinir. Axı, işğal olunmuş əzəli yurd yerimiz Qarabağ torpaqlardan erməni faşistlərini qovmaq onun ən böyük arzusu idi. Elə bu məqsədlə Vətən qarşısındakı borcunu yerinə yetirmək üçün hərbi xidmətə yola düşür. Ön cəbhədə xidmət edir, və bunu özünə şərəf bilir. Həm də səmimiliyi, mərdliyi Altaya əsgər və zabitlərin hörmətini qazandırır. O, hərbi təlimlərdə döyüş igidliyinə görə fərqlənir, eyni zamanda nümunəvi xidməti ilə əsgər yoldaşlarında Vətənə, torpağa məhəbbət hissi yaradır.

Altay əsgərliyi başa vurub Lerik şəhərinə qayıdır. Canına yağı dadanmış Vətən təəssübünü çəkən Altay bir aydan sonra düşməndən qisas almaqdan ötrü yenidən hərbiyə yazılır. İkinci Qarabağ müharibəsi başlanır. Müharibə ölüm-itim olsa da, Altay bunu sevinclə qarşılayır. Ona görə k, Vətən torpağını azad etmək, yağı düşməndən intiqam almaq zamanı çatmışdı. Lerikin qartal balası əlinə silah alıb ilk gündən odun-alovun içinə, vuruşa atılır. Vətəni öz qanı bahasına yaşadan qeyrətli oğullardan biri də məhz o, olur.

Hər qarış Vətən torpağı uğrunda canından-qanından keçməyə hazır olan Altay Füzuli istiqamətdə gedən ağır müharibədə rəşadətlə, mətanətlə döyüşür və erməni dığalarının neçə-neçə texnikasını sıradan çıxarır, canlı qüvvəsini sarsıdır. Oktyabrın 18-də isə " Vətən yaşasın "-deyə polad sinəsini gülləyə sipər edir. Və torpaq uğrunda axıtdığı qan qəhrəman əsgəri əbədiyyətə qovuşdurur. Onun qısa həyat yolu xalqı üçün Vətənə sevgi simvoluna dönür.

Bəli, Vətən, torpaq uğrunda şəhid olanların ömür əbədidir. Şəhid adının müqəddəsliyində Altay Mövlanovun yeri dünya durduqca saf ürəklər olacaqdır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# ASC Şəkidə suvarmaya hazırlıq işləri görür

***Şəkidə suvarmaya ciddi hazırlıq işləri gedir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Şəki Suvarma Sistemləri İdarəsi Şəki rayonunun 39 min hektara yaxın suvarılan torpaq sahələrinə xidmət göstərir.***

Əkin sahələrinin su ilə təminatı üçün 910 km uzunluğunda təsərrüfatlararası və təsərrüfatdaxili kanallardan istifadə olunur. Bundan başqa Şəki rayonunun 7780 hektar və Qax rayonunun 3 min hektara yaxın əkin sahələrinin suvarma suyu ilə təminatı üçün Əyriçay Su Anbarından nasoslar vasitəsi ilə su vurulur. Suvarma ümumi uzunluğu 46,555 km olan kanalların və üzərində olan 138 ədəd hidrotexniki qurğuların, o cümlədən balansda olan 5 ədəd nasos stansiyası vasitəsi ilə həyata keçirilir. İdarə tərəfindən əhalinin suvarma və içməli suyuna olan tələbatını ödəyən subartezian quyularının da əsaslı və cari təmir işləri aparılır. Belə quyulardan biri də rayonun Baş Küngüt kəndində yerləşir. Bu quyu uzun illər istismar olunduğundan yararsız vəziyyətə düşmüşdü. Artıq həmin quyu əsaslı təmir olunaraq əhalinin istifadəsinə verilib.



İdarə tərəfindən ötən il Əyriçay Su Anbarının İstismarı sahəsinin sol sahil magistral kanalının sol qolunun 2000 paqonometrə qədər hissəsində dəmir-beton novların əsaslı təmir işləri aparılıb. Hazırda 1000 kubmetrlik anbarda lildən təmizləmə işləri həyata keçirilir.

Bundan başqa su istifadəçilərinə verilən suyun itkisiz və daha səmərəli çatdırılması üçün kanallarda lildən təmizləmə işləri mütəmadi olaraq davam edir. Bu işlərin davamı olaraq bu günə qədər rayonun 7 kəndinin 6000 hektara yaxın əkin sahələrinin suvarma suyu ilə təmin edən ümumi uzunluğu 28 km olan Dəhnə beton kanalın 9 kilometrdən çox hissəsində əsaslı təmir işləri aparılıb. Bu il isə daha 2 km-dən artıq təmir işlərinin aparılması nəzərdə tutulub.

Qeyd edək ki, Şəki Suvarma Sistemləri İdarəsi rayon ərazisində yerləşən 67 min hektardan artıq qış otlaqlarının su təminatı da həyata keçirir. Acınohur Qış Otlaqlarının Su Təminatı Sistemlərinin İstismarı sahəsinin ümumi uzunluğu 119 km olan Acınohur təzə xəttinin 2021-ci ildə 3700 paqonometr hissəsində əsaslı təmir işləri aparılıb. Bu il xəttin 1100 metrlik hissəsində bu işlərin davamı nəzərdə tutulub.

# "Azəriqaz"ın əməkdaşını döyən şəxs həbs edildi



***Aprelin 5-də saat 16.30 radələrində "Azəriqaz" İstehsalat Birliyində çilingər vəzifəsində işləyən Bakı şəhər sakini Ağamirzə Vəliyev döyülməsi ilə bağlı Nəsimi RPİ-nin 20-ci PB-yə müraciət edib. O, Bakı şəhəri Nəsimi rayonu 3-cü Alatava küçəsindəki evlərdən birinə gələrək həmin ünvanda qaz sayğacında nasazlıq yarandığından yenisi ilə əvəz edilməsinin vacib olmasını ev sahibinə bildirib.***

DİN-in Mətbuat Xidmətinin inspektoru, polis mayoru Anar Qafarov "Unikal"a bildirib ki, qaz sayğacını əvəz edən zaman A.Vəliyev və ev sahibi Ədalət Hüseynov arasında mübahisə yaranıb. Mübahisə zamanı ev sahibi onu nalayiq ifadələrlə təhqir edərək başı ilə alın nahiyyəsindən 2 dəfə baş zərbəsi endirib.

Nəticədə A.Vəliyev yerə yıxılaraq baş nəhiyyəsindən xəsarət alıb. O, hadisədən sonra xəstəxanaya müraciət edib və tibbi müayinədən keçməklə, polis bölməsi tərəfindən xəsarət dərəcəsinin müəyyən edilməsi məqsədi ilə ekspertizaya göndərilib.

A.Vəliyevi döyüb bədən xəsarəti yetirən Bakı şəhər sakini, əvvəllər Cinayət Məcəlləsinin 128-ci və 263.1-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb edilən Ədalət Hüseynov Nəsimi RPİ əməkdaşları tərəfindən saxlanılaraq İstintaq şöbəsinə təhvil verilib və barəsində CM-nin 221.1-ci maddəsi ilə cinayət işi başlanaraq həbs edilib.

***Murad İbrahimli***

# Daha bir tikinti şirkəti ağacları qanunsuz kəsdi

***Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı Bakı şəhəri, Suraxanı rayonu, Abbas Fətullayev küçəsində ağacların kəsilməsi faktı aşkar edilib.***

"Unikal" xəbər verir ki, Xidmət rəsmisi Bəhruz Məhəmmədov bildirib ki, araşdırma zamanı ağacların sözügedən ərazidə tikinti işləri aparan "Liman FFD" MMC tərəfindən kəsildiyi və təbiətə 3600 manat məbləğində ziyan dəydiyi müəyyən olunub.

Dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından toplanmış sənədlər Baş Prokurorluğa göndərilib.

# Qarabağ qazisi qəzada öldü

***Nəsimi rayonunda ağır yol qəzası baş verib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, yol-nəqliyyat hadisəsi Asif Məhərrəmov küçəsində qeydə alınıb. Sürücü Nəbi İsayevin idarə etdiyi "Mercedes-Benz" markalı minik avtomobili digər nəqliyyat vasitəsinə çırpılıb.

Nəticədə müxtəlif dərəcəli bədən xəsarətləri alan N.İsayev vəfat edib.

Qeyd edək ki, vəfat edən şəxs Birinci Qarabağ müharibəsi qazisi olub. O, müharibədə bir ayağını itirmişdi.

Faktla bağlı araşdırma aparılır.

# Bakıda yük avtomobili yandı

***Bakıda yük avtomobili yanıb.***

"Unikal" Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, Sabunçu rayonunda "Ford" markalı yük avtomobilinin yük yerinə yığılan 1 ton ağac kömürünün 70 kiloqramı və qismən avtomobilin salonu yanıb.

Avtomobil və yükünün qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# NATO Ukraynaya daha dağıdıcı silahların tədarükünü müzakirə edəcək

***NATO xarici işlər nazirləri cümə axşamı keçiriləcək iclasda ağır silahlar da daxil olmaqla, Ukraynaya əlavə silah tədarükünü müzakirə edəcəklər.***

”Unikal” Ukrayna mətbuatına istinadən xəbər verir ki, bunu görüşdən əvvəl NATO-nun baş katibi Yens Stoltenberq deyib.

”Ukraynaya dəstəyi davam etdirməyə təcili ehtiyac var. Daha sonra NATO xarici işlər nazirləri ilə görüşümüzdə əminəm ki, biz daha çox hava hücumundan müdafiə sistemlərinə, tank əleyhinə silahlara, yüngül, həm də ağır və bir çox silahlara ehtiyacı müzakirə edəcəyik”, - Stoltenberq əlavə edib.

O vurğulayıb ki, müttəfiqlər onun özünümüdafiə hüququnu təmin etmək üçün silah verirlər.

Stoltenberq bir gün əvvəl Rusiyanın Ukraynaya qarşı müharibəsinin aylar və hətta illərlə davam edə biləcəyini, ona görə də NATO ölkələri Ukraynaya yardımın davam etdirilməsi üçün uzunmüddətli planları nəzərdən keçirməli olduğunu bildirib.

***Ağarza Elçinoğlu***

# Gürcüstanda Rusiyaya qarşı etiraz aksiyası keçirildi

***Gürcüstanın paytaxtı Tbilisidə parlament binası qarşısında Rusiyanın Buça və Ukraynanın digər şəhərlərinə hücumuna etiraz edilib.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, nümayişçilər Buçada edam edilən mülki şəxslər kimi əlləri arxaya bağlı halda parlament binasının qarşısında yerə uzanıblar.

Gürcülərin bu etirazı sosial mediada müsbət qarşılanıb.

# Ukrayna MN qarşı tərəfin itkilərini açıqladı

***Ukrayna Rusiyanın hərbi itkilərini açıqlayıb.***

”Unikal” xəbər verir ki, bu barədə Ukrayna Müdafiə Nazirliyinin ”Facebook” səhifəsində bildirilib.

Qeyd edilib ki, fevralın 24-dən bu gün səhər saatlarına qədər Rusiya Ordusunun 698 tankı, 1891 zirehli döyüş maşını, 332 artilleriya sistemi, 108 reaktiv yaylım atəş sistemi, 55 havadan müdafiə sistemi, 150 hərbi təyyarəsi, 135 helikopteri, 1358 avtomobil texnikası, 7 gəmi/kateri, 76 yanacaq çəni, 111 dronu, 4 OTRK / TRK / mobil SRBM sistemi, 25 xüsusi avadanlığı məhv edilib.

Ukrayna Müdafiə Nazirliyi Rusiya tərəfinin təxminən 18900-ə yaxın canlı qüvvəsini itirdiyini bəyan edib.

# Rusiya gəmilərinin Belçika limanlarına girişi qadağan oluna bilər

***Rusiya gəmilərinin Belçika limanlarına girişi qadağan oluna bilər.***

”Unikal” xəbər verir ki, bu barədə ”The Brussels Times”in yazısında qeyd olunur.

Bildirilir ki, bu, Ukraynanın işğalı fonunda bu ölkəyə qarşı beşinci sanksiyalar paketinin bir hissəsi kimi Avropa səviyyəsində razılaşdırılarsa baş verəcək.

Xarici gəmilərin Belçika limanlarına çıxışı ölkənin dənizdə təhlükəsizliyi artırmaq və terrorizmlə mübarizə məqsədilə yaradılmış Dəniz İnformasiya Kəsişi (MİK) tərəfindən nəzarət edilir. Avropa Komissiyasının Rusiya tərəfindən idarə olunan gəmilərin Aİ limanlarına girişinə qadağa da daxil olmaqla təklif etdiyi beşinci sanksiya paketini nəzərə almaq xüsusilə vacibdir.

***Ağarza Elçinoğlu***

# Avropa İttifaqının “Strateji kompası” nə göstərir

## NATO-suz Avropa Təhlükəsizliyi mümkündürmü?




***Mart ayında Avropa İttifaqı ölkələrinin liderləri Brüsseldə keçirilən sammitdə təşkilatın tarixində ilk dəfə olaraq Birliyin müdafiə strategiyasını - “Aİ Strateji Kompasını” təsdiqləyiblər. Əslində bu, yaxın gələcək üçün təhlükəsizlik sahəsində fəaliyyət planıdır və ona əsasən assosiasiya ölkələri öz müdafiə səviyyələrini qaldıra biləcəklər. Onun üzərində son iki il ərzində iş aparılıb və bundan sonra müntəzəm davam etdiriləcək - növbəti belə ”kompas” 2025-ci ildə meydana çıxacaq.***

Strategiyanın “Strateji Kompas” adlandırılmasının birbaşa mənası var - bir qədər məxfiləşdirilmiş 42 səhifəlik sənəd Aİ-nin bütün cəbhələrdə təhlükəsizliyi ilə bağlı narahatlıqların səbəbləri haqqında geniş icmaldır. Təbii ki, ön planda Rusiya, onunla bağlı Ukrayna, Gürcüstan və Moldovada münaqişələr var. “Politico” nəşri yazır ki, Rusiya Ukraynada müharibəyə başladıqdan sonra sənəddə bu mövzuya xüsusi diqqət yetirilib. Çünki ötən ilin noyabrında hazır olan sənədin ilkin layihəsində Rusiya ümumiyyətlə təhlükə kimi qeyd olunmamışdı. Ötən dörd ay ərzində sənəddə Rusiya Federasiyasına istinadların ümumi sayı 6-dan 19-a yüksəlib. Bəzi məsələlərdə Rusiya ilə qarşılıqlı əlaqənin zəruriliyi ilə bağlı ifadələr isə yoxa çıxıb.

Sadalanan təhdidlər arasında daha sonra Çin, Qərbi Balkanlarda qeyri-sabit vəziyyət, Afrikanın Sahara-Sahel bölgəsində islamçı terrorizm, Yaxın Şərqdəki münaqişələr, Arktika, Hind-Sakit okean regionu və Latın Amerikasındakı problemlər var. Bundan əlavə, Aİ-yə kiberməkandan və hətta kosmosdan təhlükələrin olduğu qeyd edilib.

Hazırda Aİ-nin hərbi xərcləri ÜDM-in 1,5%-i və ya 200 milyard avro təşkil edir. Birliyin baş diplomatı Josep Borrelin sözlərinə görə, bu, Rusiyanın hərbi xərclərindən az qala dörd dəfə çox, Çinin müdafiə xərcləri ilə, demək olar ki, eynidir. Lakin Brüssel bunun kifayət etmədiyi qənaətindədir. ”Biz daha çox və daha səmərəli xərcləməliyik”, - Borrel deyib.

**Aİ özünü necə müdafiə edəcək?**

**Sənəd Aİ-nin gələcək işini dörd bənd üzrə əks etdirir:**

- böhran vəziyyətlərində çevik və qətiyyətli fəaliyyət;
- vətəndaşların sürətlə dəyişən təhlükələrdən qorunması;
- imkanlara və texnologiyaya investisiya qoyulması;
- ümumi məqsədlərə nail olmaq üçün digər ölkələr və təşkilatlarla əməkdaşlıq.

Proqramda Avropa İttifaqının çevik yerləşdirmə qüvvələrinin yaradılması üzrə konkret plan da var - müxtəlif böhranlar zamanı o, 5000-ə qədər hərbçini operativ yerləşdirə biləcək. Almaniya artıq belə əsgərləri öz ordusundan təmin etməyi təklif edib.

Avropanın təhlükəsizliyi ilə bağlı yeniliklərin ikinci bəndinə Aİ səviyyəsində real şəraitdə əvvəllər heç vaxt görülməmiş müntəzəm təlimlərin keçirilməsi daxildir. Daha sonra sadələşdirilmiş məqsədlər - komandanlıq və nəzarət mexanizmlərini gücləndirmək, daha sürətli və çevik qərarların qəbulunu təşviq etmək, kibertəhlükələr, dezinformasiya və xarici müdaxilə ilə mübarizə qabiliyyətini artırmaq gəlir.

“Gələcək nəsillərin imkanlarına” və strateji müdafiə vasitələrinə investisiyalar planlaşdırılır. Bu məqsədlər üçün Avropa Müdafiə Agentliyində yeni mərkəz yaradılacaq. Bundan əlavə, Avropa İttifaqı öz kosmik strategiyası üzərində də işləyəcək.

Aİ Şurasının qəbul edilmiş müdafiə konsepsiyası ilə bağlı bəyanatında deyilir: ”Etibarsız təhlükəsizlik mühiti bizdən keyfiyyətcə irəliyə doğru sıçrayış etməyi, fəaliyyət qabiliyyətimizi və hazırlığımızı artırmağı tələb edir”.

**Aİ NATO asılılığından çıxa bilərmi?**

Ekspertlər razılaşırlar ki, qəbul edilmiş yol xəritəsi alyansın tarixində hər hansı yeni tarixi mərhələdən danışmağa əsas vermir. Hazırda bu, Aİ-nin hərbi-siyasi fəaliyyətdən uzaqlaşdığı dövrün bitdiyini göstərmək üçün sırf simvolik bir addımdır. Amma avropalılar NATO-dan asılılığı etiraf edir və alyansa hər zamankından daha çox ehtiyac olduğunu deyirlər. Avropada Amerikada siyasi inkişafın növbəti mərhələsində prioritetlərin dəyişə biləcəyi ilə bağlı qorxular var, çünki bu, məsələn, Donald Trampın dövründə baş vermişdi.

Aydındır ki, NATO hərbi əməliyyatları idarə etmək üçün Avropa İttifaqının keçmişdə yaratdığı bütün strukturlardan hələ də istifadə edir. Avropanın təhlükəsizliyini yaxşılaşdırmaq üçün də tədbirlər görülüb, lakin onların həyata keçiriləcəyinin nə dərəcədə mümkün olacağını söyləmək hələ ki çətindir.

Avropa İttifaqının ümumi hərbi qüvvə yaratmaq cəhdlərini vaxtaşırı gündəmə gələn “köhnə söhbət” hesab etmək olar. 1990-cı illərin sonundan etibarən Aİ NATO-dan asılı olmayan müdafiə siyasətini elan edib. Ancaq bu asılılıq çox güclü olduğundan indiyə qədər heç nə edə bilməyiblər. Məsələn, 2000-ci illərin əvvəllərində amerikalıların təzyiqi ilə belə bir qərar qəbul edilib ki, Aİ sülhməramlı əməliyyatları yalnız NATO-nun istədiyi yerdə və vaxtda keçirə bilər.

Yeni strategiya bu tipli ilk sənəd deyil. 2016-cı ildə Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti üzrə qlobal strategiyası qəbul edilib. Amma reallıqda Rusiyadan təhlükə olduğu halda, Aİ ölkələrinin NATO-dan çıxmaq barədə qərar qəbul etmələri ehtimalı azdır. Bunu həm bacarmazlar, həm də istəmirlər. Uzun müddətdir ki, Aİ-nin müstəqilliyinə doğru istənilən hərəkətin qarşısını əvvəlcə Britaniya və Polşa, indi də Şərqi Avropa ölkələri alıblar. Odur ki, bu cür sənədlər yazılsa da, praktikada işlər irəli getmir(azvision).

***Nadir Qocabəyli***

# Canni de Byazi yığmamızı xaraktersiz və qorxaq adlandırdı

***"Azərbaycan millisi ilə bağlı problem çox az vaxtın olmasıdır. Malta və Latviya ilə oynadıq, hər ikisinə 0:1 hesabı ilə uduzduq və yeni sistemi sınadıq".***

Apasport.az saytının "tuttomercatoweb.com"a istinadən məlumatına görə, bunu Azərbaycan millisinin baş məşqçisi Canni de Byazi deyib.

Ölkəsinin mətbuatına müsahibə verən italiyalı mütəxəssis mərkəz hücumçusu ilə bağlı problemlərinin olması ilə bağlı sualı belə cavablandırıb: "Komandada çatışmazlıqlar var. Bunun fonunda nə qurduğumuzu dərk etməkdə çətinlik çəkirik. Problemin üzərində işləyirəm. Komanda ilə bağlı digər problem xarakterdir. Həmişə uduzursansa, daha az boyun əyməli, daha çox qürur və qətiyyət nümayiş etdirməlisən. Hələlik buna təsir edə və ruhumu qorxaq komandaya verə bilmirəm".



Çalışdırıcı iyunda start götürəcək Millətlər Liqasında sıx qrafiklə oynayacaqlarını da sözlərinə əlavə edib: "Yığmalarla bağlı problemlər mövcuddur. 12 gün ərzində Millətlər Liqasında 4 oyun keçirəcəyik. Bunu edəcək futbolçularım belə yoxdur! Bəzi şeylər bizi təəccübləndirir".

Qeyd edək ki, Azərbaycan yığması Millətlər Liqasında C Liqasının III qrupunda Slovakiya, Belarus və Qazaxıstanla mübarizə aparacaq.

# Tuxel: "Santyaqo Bernabeu"ya getməyimizə ehtiyac qalmayacaq"

***"Ağır məğlubiyyət aldıq. "Stemford Bric"də ən zəif birinci hissəmizi keçirdik".***

Bunu "Çelsi"nin baş məşqçisi Tomas Tuxel Çempionlar Liqasının 1/4 final mərhələsində "Real"a 1:3 hesabı ilə məğlub olduqları ev oyunundan sonra deyib.

Almaniyalı mütəxəssis son vaxtlar zəif oyun ortaya qoyduqlarını etiraf edib. O, İspaniyadakı cavab görüşü üçün ümidli olmadığını da söyləyib: "Çətin dönəmdən keçirik. Əvvəlcə "Sauthempton"a getməliyik. Belə davam etsək, çempionatda "Sauthempton"a da uduzacağıq və "Santyaqo Bernabeu"ya getməyimizə ehtiyac qalmayacaq. Çünki bu gedişlə orada da uduzacağıq".

Qeyd edək ki, bu komandalar arasında cavab matçı aprelin 12-də keçiriləcək.



# "Qarabağ"a ilk mümkün rəqib

***Çempionlar Liqasının 2022/23 mövsümünə I təsnifat mərhələsindən başlayacaq 11 klubun adı bəllidir.***

Bu komandalardan beşi artıq püşkatmada yer alacağı səbəti də bilir. 4 çempion indidən səpələnmişlər sırasındadır. Yunanıstan çempionatının qalibi olacaq komanda da bu səbətdə yer alacaq. Yalnız bir klubun zəiflər səbətindəki yeri dəqiqləşib.

Azərbaycan çempionu hələ dəqiqləşməsə də, "Qarabağ"ın Premyer Liqanın qalibi olacağı çətin ki, şübhə doğursun. 1 oyun az keçirən və 11 xal öndə olan Qurban Qurbanovun yetirmələrinin 7 turda qızılı əldən verəcəyi mümkünsüz görünür.

Ağdam klubu çempion olan kimi səpələnmişlər səbətinə düşəcək. Bu da o deməkdir ki, səpələnmişlərdə olacağı dəqiqləşən yeganə komandanı indidən "Qarabağ"a ilk mümkün rəqib saymaq olar. Bu, Batumi təmsilçisi "Dinamo"dur.

Çempionlar Liqasında I təsnifat mərhələsi
Səpələnmişlər
"Malmö" (İsveç)
"Bodo Qlimt" (Norveç)
HİK (Finlandiya)
TNS (Uels)
Yunanıstan çempionu
Səpələnməmiş
"Dinamo" (Batumi, Gürcüstan)
Qeyri-müəyyənlər
"Jalgiris" (Litva)
"Şemrok Rovers" (İrlandiya)
"Şaxtyor" (Belarus)

# "Millidə ruh yoxdursa, bunun səbəbkarı Canni de Byazidir" - Vaqif Sadıqov

***AFFA-nın vitse-prezidenti, Məşqçilər Komitəsinin sədri Vaqif Sadıqov millimizin baş məşqçisi Canni De Byazinin İtaliya mətbuatına müsahibəsində millimizi qorxaq və xaraktersiz adlandırmasına münasibət bildirib.***

O, Qol.az saytına açıqlamasında mütəxəssisin belə fikirlər səsləndirdiyinə görə tənqid edib: "Canni de Byazi hər dəfə İtaliyaya gedəndə bizi təəccübləndirən çıxışlar edir. Düzdür, Azərbaycana qayıdandan sonra bəhanə tapır, oradakı jurnalistləri qınayır. Amma mən bu sözləri ona yaraşdırmıram. De Byazi bilsin ki, il yarım əvvəl 44 günlük müharibədə nə qədər mərd, rəşadətli olduğumuzu göstərdik. Komandamız da heç vaxt heç kimdən çəkinməyib və qorxmayıb. Əgər bu gün millidə o ruh yoxdursa, bunun birinci səbəbkarı Canni de Byazidir. Çünki həmin ruhu o yaratmalıdır. İlk növbədə De Byazi yığmanı komanda şəklində güclü etməlidir. O, Bakıya qayıdandan sonra hər birimiz tərəfindən bu müsahibə ilə bağlı suallar ünvanlanacaq. De Byazi bu sözlərin arxasında dura bilsə, ondan soruşacağıq ki, bu qədər vaxtdır komanda ilə çalışan bir insan yığmaya inanmırsa, bundan sonrakı fəaliyyəti nə dərəcədə düzgün olacaq? Ümumiyyətlə, o, belə olan halda Azərbaycan futboluna və yığmasına necə xeyir verə biləcək? Deyəsən, çox sərt danışdım. Amma inanın ki, tam səmimi fikirlər səsləndirirəm".

V.Sadıqov bildirib ki, baş məşqçi belə çıxış etməməlidir: "O, ailə kimi böyük bir komandanın üzvüdür. Ailənin digər üzvlərinə qorxaqlığı aşılamaq olmaz! Onları xaraktersiz adlandırmaq olmaz! Bu komandaya ruh yüksəlişi verməklə yola davam etmək lazımdır".

# Tanınmış şahmatçımız Ukraynaya görə FİDE yarışlarından imtina etdi

***Azərbaycan şahmatçısı Rauf Məmmədov Beynəlxalq Şahmat Federasiyasının (FİDE) bayrağı altında yarışlarda iştirakdan imtina edib.***



Bu barədə o, feysbuk hesabında məlumat verib. Qrossmeysterimiz bu addımı Rusiyanın Ukraynaya hücumuna görə atdığını bildirib. Məmmədov FİDE-nin prezidenti Arkadiy Dvorkoviçi Rusiyapərəst adlandırıb: "Nə qədər ki, FİDE-nin prezidenti Rusiyapərəstdir, müharibə müddətində bu turnirlərdə iştirak etməyəcəm".

Qeyd edək ki, Məmmədovun həyat yoldaşı ukraynalı şahmatçı Natalya Buksadır.

# Azərbaycanlı məşqçi "Ayntraxt"la anlaşdı

***Azərbaycanlı futbol məşqçisi Etibar İbrahimov Almaniyanın "Ayntraxt" (Frankfurt) klubu ilə anlaşıb.***

Bu haqda məlumatı "Kəpəz"in mətbuat katibi Azad Mustafayev feysbuk hesabında yazıb.

44 yaşlı mütəxəssis Frankfurt təmsilçisinin Çindəki akademiyasında çalışacaq və onunla 1+2 illik müqavilə imzalanacaq. İbrahimov viza ilə bağlı məsələni həll etdikdən sonra sözləşməni rəsmiləşdirmək üçün Almaniyaya, oradan isə Çinə yollanacaq. Onun təyinatında "Ayntraxt"ın beynəlxalq əlaqələr üzrə idman direktoru Nikolay Adamın da rolu olub. Almaniyalı mütəxəssis 17 və 19 yaşadək futbolçulardan ibarət Azərbaycan millisində və Hindistan yığmasında birgə çalışdığı İbrahimovu klub rəhbərliyinə məsləhət görüb.

Etibar İbrahimov 2018/2019 mövsümündə "Kəpəz"in baş məşqçisi olub.

# De Byazi Azərbaycan yığmasını qorxaq və xaraktersiz adlandırdı

***"Azərbaycan yığması ilə Malta və Latviyaya qarşı oyunlarda uduzsaq da, yeni sistemi sınadıq".***

"Qafqazinfo" "tuttomercatoweb.com"a saytına istinadən xəbər verir ki, bu sözləri Azərbaycan millisinin baş məşqçisi Canni de Byazi deyib.

İtaliyalı jurnalistin "Komandanızda mərkəz hücumçusu var" sualını mütəxəssis belə cavablandırıb: "Komandada çatışmazlıqlar var. Bunun fonunda nə qurduğumuzu dərk etməkdə çətinlik çəkirik. Problemin üzərində işləyirəm. Komanda ilə bağlı digər problem xarakterdir. Həmişə uduzursansa, daha az boyun əyməli, daha çox qürur və qətiyyət nümayiş etdirməlisən. Hələlik buna təsir edə və ruhumu qorxaq komandaya verə bilmirəm".

De Byazi Millətlər Liqasında keçirəcəkləri oyunlardan da danışıb: "Yığmalarla bağlı problemlər mövcuddur. 12 gün ərzində Millətlər Liqasında 4 oyun keçirəcəyik. Bunu edəcək futbolçularım belə yoxdur. Bəzi şeylər bizi təəccübləndirir".

# "Qalatasaray" Kiyev "Dinamo"su ilə xeyriyyə matçı keçirəcək

***Kiyev "Dinamo"su ilə "Qalatasaray" arasında yoxlama görüşü keçiriləcək.***

Apasport.az saytının məlumatına görə, bunu Ukrayna klubunun baş məşqçisi Mirça Luçesku açıqlayıb.

Rumıniyalı mütəxəssis qarşılaşmanın aprelin 14-də İstanbulda baş tutacağını bildirib. Matçdan əldə olunacaq gəlir Rusiya ilə hərbi gərginlik zamanı valideynləri həlak olan ukraynalı uşaqlara xərclənəcək.

Luçesku bu təklifi qəbul etdiyi üçün "Qalatasaray" rəhbərliyinə təşəkkürünü bildirib: "Dinamo" azarkeşləri bu jesti unutmayacaq".